DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 06 (347) / SENTYABR 2020-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV: AZƏRBAYCAN ÖZ ƏRAZİ BÜTÖVLÜYÜNÜ BƏRPA EDİR VƏ BİZİM BUNA TAM HAQQIMIZ ÇATIR



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız.

Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar.

Bildiyiniz kimi, şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Deyə bilərəm ki, Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbir versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir.

Eyni zamanda, Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında – Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik.

Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir.

Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim. Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş həbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik. Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

davamı səh. 2

# PREZİDENT İLHAM ƏLİYEV: AZƏRBAYCAN ÖZ ƏRAZİ BÜTÖVLÜYÜNÜ BƏRPA EDİR VƏ BİZİM BUNA TAM HAQQIMIZ ÇATIR



əvvəli səh. 1

Hələ ki gec deyil. Mən bir daha sözümü demək istəyirəm ki, Ermənistan bizim torpaqlarımızdan dərhal çıxmalıdır. Bilirsiniz ki, indi müxtəlif beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri mənə zəng edirlər, məsələ ilə bağlı maraqlanırlar, öz fikirlərini söyləyirlər. Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bu, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq baxımından da bu, bizim torpağımızdır.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun. Eyni zamanda, qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Çünki əziz qardaşımın çox açıq açıqlamaları və sərt bəyanatları bir daha göstərir ki, Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər. Bilirsiniz, danışıqlarla məşğul olan beynəlxalq format var. Əfsuslar olsun ki, bu format, heç bir nəticə hasil etməyib. Ona görə indiki şəraitdə hansısa tərəflərdən dialoqa çağırış hesab edirəm ki, yersizdir. Bunu beynəlxalq təşkilatlar edir, bunu BMT edir. Biz bunu təbii ki, qəbul edirik. Bunu ATƏT edir, biz bunu qəbul edirik. Çünki ATƏT-in mandatı var. Yoxsa ki, kimsə deyir gəlin belə dialoqu başlayaq, biz də kömək edək, bunlara ehtiyac yoxdur. İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa, şərin? Dostun, yoxsa, düşmənin? Həqiqət anıdır-mənim üçün, xalqımız üçün, hamımız üçün.

Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq. Bilirsiniz ki, Azərbaycan dünyada güclü mövqelərə malikdir. Son illər ərzində biz beynəlxalq təşkilatlarda kifayət qədər səmərəli fəaliyyət göstərmişik və haqlı olduğumuzu sübut edə bilmişik. Biz bunu sübut etməli idik ki, biz haqlıyıq. Artıq demək olar ki, bütün əsas beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT – bütün bu təşkilatlar bizim mövqeyimizi dəstəkləyən bəyanatlar veriblər. Biz buna görə minnətdarıq. Bu, məsələnin hüquqi tərəfidir. Tarixi tərəfinə gəldikdə isə, tarixi həqiqət bizim tərəfimizdədir. Hər kəs internetə girib oxuya bilər. Qarabağ xanlığının tarixi ilə əlaqədar materiallar var. Qarabağ xanlığının Rusiya imperiyasına daxil edilməsi ilə əlaqədar materiallar var. Kürəkçay sülh müqaviləsi haqqında məlumatlar var. Kürəkçay sülh müqaviləsini bir tərəfdən bağlayan İbrahim Xəlil Xan şuşalı və qarabağlı, - müqavilədə belə də yazılmışdır, - şuşalı və qarabağlı İbrahim Xəlil Xan. Digər tərəfdən çar Rusiyasının generalı imzalamışdır. Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlmə də yoxdur. Bu, nəyi göstərir? Onu göstərir ki, o vaxt orada erməni əhalisi olmayıb, ondan sonra köçürülüb. Ondan sonra onlar artıq orada yerləşiblər və sonra bizə qarşı ərazi iddiaları qaldırıblar. Ona görə biz tamamilə haqlıyıq. Bizim davamız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm, bu gün də deyirəm ki, biz haqq yolundayıq. Ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik.

Mənə gələn məlumatlar onu göstərir ki, bu son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. Onlar yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrimizi yenə də atəşə tutmaq istəyirlər və bunu davam edirlər. Hər gün mülki əhali arasında itkilərimiz artır. Dünən səhərə olan məlumata görə bizim 10 mülki vətəndaşımız həlak olmuşdur. Bu gün səhər mənə verilən məlumata görə isə həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülk şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun.

Mən sizi həm təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Mayor Etibar Camalov:** Cənab Ali Baş Komandan, cənab Prezident, çox sağ olun. Həqiqətən də Azərbaycan əsgəri düşmənin qarşısını aldı, düşmənə layiqli cavablar verdi. Bu gün də, hər bir insan yenə ön xəttə qayıtmağa hazırdır. Sizin bu qüdrətli sözlərinizdən biz qürur duyuruq. Hər zaman torpağımız, dövlətimiz üçün şam kimi yanmağa hazırıq. Çox sağ olsun həkim kollektivi, bizə çox böyük diqqət göstərir. Çox yaxın bir zamanda bütün döyüşçü yoldaşlarımızla cəbhə bölgəsinə qayıtmağa hazırıq. Çox sağ olun.

***

Sonda xatirə şəkli çəkdirildi.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ROSSİYA-1" TELEKANALININ "60 DƏQİQƏ" PROQRAMINDA SUALLARI CAVABLANDIRIB

Sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib.

AZƏRTAC xəbər verir ki, verilişdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.

Verilişin aparıcıları birinci olaraq sualları Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlayıblar.

**Aparıcı: Cənab Prezident, sağ olun ki, bu müsahibəni verməyə razılaşmısınız. İndi birbaşa cəbhədə nələr baş verir, artıq aviasiyadan istifadə edilməsi barədə məlumat alınır.**

**Prezident İlham Əliyev:** Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

**Aparıcı: İlham Heydər oğlu, xahiş edirəm Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici İşlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında Sizə kömək edəcək.**

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyknyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

**Aparıcı: İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.**

**Prezident İlham Əliyev:** Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat



olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

**Aparıcı: İlham Heydər oğlu, Sizin ölkəniz Ermənistan tərəfindən bir neçə rayonun azad edilməsini nəzərdə tutan Kazan formuluna və ya hər hansı başqa formula tərəf meyil etməyə hazırdırmı? Prinsip etibarilə indi nə etmək olar? Otuz il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli? Nə etməli?**

**Prezident İlham Əliyev:** Bilirsiniz, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik. Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, "Qarabağ Ermənistandır və nöqtə". Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, "Qarabağ Ermənistandır" və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük.

**Aparıcı: Cənab Prezident, xahiş edirəm deyin, bazar günü nə baş verib, bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub?**

**Prezident İlham Əliyev:** Bilirsinizmi, bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada – Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını

davamı səh. 4

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ROSSİYA-1" TELEKANALININ "60 DƏQİQƏ" PROQRAMINDA SUALLARI CAVABLANDIRIB

əvvəli səh. 3

keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Biz təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdik, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər. Üstəlik, daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Axı, bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir.

Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

**Aparıcı: Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?**

**Prezident İlham Əliyev:** Yoxdur. Bu, növbəti feyknyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

**Aparıcı: Çox sağ olun. İlham Əliyev bizimlə Bakıdan əlaqədə idi. Sizə cansağlığı arzulayırıq, görüşənədək. Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Sağ olun. Görüşənədək.

**Aparıcı: İndi biz Yerevanla əlaqəyə çıxırıq. Ermənistanın lideri, Ermənistanın baş naziri Nikol Paşinyan bizə qoşulur. Salam, Nikol Vovayeviç. İlk növbədə, biz istərdik ki, indi nələr baş verdiyini şərh edəsiniz. Çox həyəcanlı xəbərlər gəlir.**

**Nikol Paşinyan:** Bu gün səhər belə bir xəbər aldıq ki, Azərbaycan bilavasitə Ermənistan Respublikasının ərazisindəki kəndləri bombalayıb. Bundan əvvəl isə sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri Dağlıq Qarabağa qarşı tammiqyaslı hərbi təcavüzə başlayıblar. Onlar artıq üç gündür ki, artilleriyadan və yaylım atəşi sistemlərindən istifadə etməklə Dağlıq Qarabağın yaşayış məntəqələrini bombalayırlar. Təəssüf ki, bizdə həm hərbçilər, həm də mülki əhali arasında həlak olanlar var. Çox mühüm məqam ondan ibarətdir ki, Türkiyə faktiki olaraq bu prosesə cəlb edilib. Bizdə olan mötəbər informasiyaya görə, hərbi təlimatçılar və yüksək vəzifəli hərbçilər indi Azərbaycanın komanda məntəqələrindədirlər və bəzi yerlərdə hətta hərbi əməliyyatlara rəhbərlik edirlər. Daha bir mühüm məqam. Artıq beynəlxalq mətbuatda çoxsaylı materiallar dərc edilib ki, Türkiyə Suriya ərazisindən muzdluları cəlb edir, onları Dağlıq Qarabağa və Ermənistan Respublikasına qarşı müharibədə iştirak etmək üçün Azərbaycana aparır. Yeri gəlmişkən, belə bir məlumat da var ki, Azərbaycanın yaşayış məntəqələrində bu muzdlularla yerli sakinlər arasında artıq bəzi toqquşmalar baş verib. Ona görə ki, bu muzdlular həmin kəndlərdə şəriət qanunları tətbiq etməyə çalışır, mağazalara girərək tələb edirlər ki, bu mağazalar alkoqollu məhsullar satışını dayandırsınlar və s. və ilaxır.

**Aparıcı: Cənab Paşinyan, indicə xəbər gəldi ki, Türkiyənin F-16 təyyarəsi Ermənistan silahlı qüvvələrinin Su-25 təyyarəsini vurub. Özü də bu xəbər Ermənistan Müdafiə Nazirliyinə istinadla gəlib ki, pilot həlak olub. Bu xəbər sizə məlumdurmu? Yəni, Ermənistan və Türkiyə təyyarələri artıq göydə toqquşur?**

**Nikol Paşinyan:** Bu, artıq faktdır və mənim dediyimi bir daha sübut edir. Bilirsinizmi aşkardır ki, həm Ermənistan, həm də Dağlıq Qarabağ erməniləri bilavasitə Türkiyənin təhdidi altındadırlar. Bizdə olan məlumata görə, Türkiyə bu münaqişəyə daha geniş qoşulmaq üçün bəhanə axtarır. Bizdə olan məlumata görə, onlar öz qoşunlarını Naxçıvana gətirmək üçün bəhanə axtarırlar. Bu, Azərbaycanın Türkiyə, Ermənistan və İranla həmsərhəd anklavıdır. Hərçənd bizdə məlumat var ki, Türkiyə Ordusunun bəzi bölmələri artıq oradadır. Ümumiyyətlə, burada heç bir sirr yoxdur. Ona görə ki, Türkiyə qoşunları artıq avqust ayından Azərbaycandadırlar. Onlar birgə hərbi təlimlərə başlayıblar və bu məsələ həmin hərbi təlimlərin davamı kimi başlanıb.

**Aparıcı: Nikol Vovayeviç, indi artıq bir çox ekspertlər Dağlıq Qarabağda hazırda baş verənlərin hamısını çox sərt şəkildə ifadə və izah edirlər. Müharibə sözü səslənir. Bu sözdən istifadə etmək nə dərəcədə korrektdir, nə dərəcədə yerinə düşür və indi qan tökülməsinə son qoymaq və atəşi dayandırmaq üçün nə isə etmək olarmı?**

**Nikol Paşinyan:** Əlbəttə, sualınız korrektdir. Ona görə ki, müharibə gedir. Çoxlu dağıntılar, insan tələfatı var və olduqca çox sayda hərbi qulluqçu cəlb edilib. Bu, bizim üçün çox mühüm məqamdır. Bildiyiniz kimi, XX əsrin əvvəlində XX əsrin ilk soyqırımı baş verib. Bu, Osmanlı imperiyasında baş verib və bu soyqırımının qurbanı erməni xalqı olub. Ona görə biz hamımız bunu xalqımız üçün ekzistensial təhdid kimi qəbul edirik. Faktiki olaraq biz bunu erməni xalqına elan edilmiş müharibə kimi qəbul edirik. İndi bizim xalqımız, sadəcə, özünümüdafiə hüququndan istifadə etməyə məcburdur. Nə etmək olar? Beynəlxalq birlik Azərbaycanın təcavüzkar hərəkətini və təcavüzünü qətiyyətlə pisləməlidir. Türkiyənin hərəkətləri pislənməlidir. Tələb etmək lazımdır ki, Türkiyə ümumiyyətlə bu regiondan çıxsın. Ona görə ki, Türkiyənin Cənubi Qafqazda hərbi iştirakı heç bir yaxşı şey vəd etmir. Bu, münaqişənin daha da genişlənməsinə və bu hərbi əməliyyatların, bu müharibənin miqyasının artmasına gətirib çıxara bilər. İndi beynəlxalq birlik Türkiyəni Cənubi Qafqazdan çıxmağa məcbur etmək və Azərbaycanı təcavüzü, təcavüzkar hərəkətlərini, hərbi əməliyyatları dayandırmağa məcbur etmək üçün konkret səy göstərməlidir.

**Aparıcı: Cənab baş nazir, sizi daha ləngitməyəcəyik. Bilirik ki, siz hərbçilərlə müşavirəyə tələsməlisiniz. Çox qısa bir sual. Hazırda danışıqların hansı formatları işləyə bilər? Yoxsa bütün əvvəlki razılaşmalar artıq keçmişdə qalıb? Şərti mənada desək, sizin bir neçə rayonu azad etməyinizi nəzərdə tutan Kazan formatı, bütün bu razılaşmalar silinib, yoxsa həmin formatlar üzrə hələ hərəkət etmək olar?**

**Nikol Paşinyan:** Bilirsinizmi, danışıqların formatı məsələsinə gəldikdə, biz belə təsəvvür edirik ki, danışıqlar prosesi harada başlanmışdısa elə orada davam etməlidir. Bu, ATƏT-in Minsk qrupunun həmsədrliyi formatıdır. Konkret danışıqlara gəldikdə isə, danışıqlar üçün müvafiq şərait olmalıdır. Konkret hərbi əməliyyatlar getdiyi vaxtda danışıqlar barədə, xüsusən onların məzmunu barədə danışmaq çox çətindir. İlk növbədə, zorakılığı dayandırmaq və Azərbaycan bu formulu qəbul etməlidir ki, Dağlıq Qarabağ probleminin hərbi həlli yoxdur. Axı, bu müharibə sıfırdan başlamayıb. Azərbaycan hökuməti uzun müddətdir ermənilərə qarşı nifrət ritorikasını inkişaf etdirir və beynəlxalq çağırışlara rəğmən uzun müddətdir hədə-qorxu gəlir ki, Dağlıq Qarabağ məsələsini hərbi yolla həll etməyə hazırlaşır. Ümidvaram, heç olmasa indiki hadisələr və indi yaranmış vəziyyət Azərbaycanı inandıracaq ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur.

Ona görə ki, Azərbaycan Silahlı Qüvvələri öz vəzifələrini yerinə yetirə bilməyiblər. Mənə belə gəlir ki, hərbi-siyasi rəhbərlik hərbi mənada cəbhədə heç bir uğur qazana bilməyib. Yəni, onlar öz məsələsini həll edə bilməyiblər. Ümidvaram, bu, Azərbaycanı inandıracaq ki, bu münaqişənin hərbi həlli yoxdur. Dağlıq Qarabağ münaqişəsi üçün yalnız dinc və danışıqlar yolu ilə həll var. İstənilən həll təkcə Azərbaycan üçün deyil, həm də Ermənistan üçün, Dağlıq Qarabağ üçün məqbul olmalıdır. Qeyd etmək istəyirəm ki, mən baş nazir olanda bu münaqişənin həlli üçün konkret formul təklif edirdim və yenə davam edirəm, istənilən həll Ermənistan üçün, Dağlıq Qarabağ üçün və Azərbaycan üçün məqbul olmalıdır. Ölkələrin adlarının çəkilməsi ardıcıllığının heç bir mənası yoxdur. Mən onu nəzərdə tuturam ki, bu qərar eyni dərəcədə məqbul olmalıdır və təəssüf ki, Azərbaycan Hökuməti, Azərbaycan Prezidenti yalnız Azərbaycan üçün məqbul olan həllə nail olmaq istəyir. Bu, mümkün deyil. Kompromis lazımdır və kompromis üçün şərait lazımdır. Bunun üçün Azərbaycan Dağlıq Qarabağa və Ermənistana qarşı təcavüzü dərhal dayandırmalıdır. Çünki bunu Azərbaycan başlayıb. Yeri gəlmişkən, bu, əvvəlcədən planlaşdırılmış əməliyyat idi. Əslə şübhə yoxdur ki, bu əməliyyat Türkiyə Silahlı Qüvvələri ilə birgə hərbi təlimlər zamanı planlaşdırılıb. Sağ olun.

**Aparıcı: Çox sağ olun. Gəlin bunu əsas götürək ki, həll variantı Ermənistan və əlbəttə ki, Azərbaycan üçün həqiqətən məqbul olmalıdır. Münaqişənin həlli üçün heç bir hərb variantı yoxdur. Yalnız siyasət və diplomatiya. Sağ olun.**

***

Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən indiyədək dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan bu dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

Sonra müzakirələrdə siyasi və hərbi ekspertlər iştirak etdilər.

"Natsionalnaya oborona" jurnalının baş redaktoru **İqor Korotçenko:**

- Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir. İndi isə deyilənlərin mahiyyətinə gələk. Prezident Əliyev haqlıdır və tamamilə ədalətli olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə doğrudan da türk qırıcıları göndərilsəydi bu faktı gizlətmək mümkün deyildi. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır. Həmkarlarımın diqqətini bir məqama çəkmək istərdim. Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır.

# AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin tarixi-mədəni irsə və çoxəsrlik tolerantlıq ənənələrinə malik Azərbaycanda tarix boyu yəhudilər digər xalqların və dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşamışlar. Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir.

Cəmiyyətdə demokratik, hüquqi prinsiplərə əsaslanan birgəyaşayışa, yüksək dözümlülük mühitinin, multikultural dəyərlərin təşviqinə xüsusi əhəmiyyət verən Azərbaycan dövləti bütün etnik azlıqların, o cümlədən yəhudi icmasının mədəni-mənəvi dəyərlərinin qorunub-saxlanılmasına, dil və mədəniyyətinin inkişafına böyük diqqət və qayğıyla yanaşır.

Təqdirəlayiq haldır ki, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəal iştirak edən yəhudi əsilli həmvətənlərimiz, harada yaşamalarından asılı olmayaraq, Azərbaycana sevgi və sədaqətlərini daim nümayiş etdirir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə əhəmiyyətli töhfələr verirlər.

Əziz dostlar!

Xeyirxahlığı, mənəvi dirçəlişi və yeni həyatı təcəssüm etdirən Roş-Ha-Şana münasibətilə bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 16 sentyabr 2020-ci il.*

# MEHRİBAN ƏLİYEVA: "QOY UCA TANRI HƏR BİR AZƏRBAYCANLIYA MÜQƏDDƏS QARABAĞ TORPAĞINI ÖPMƏYİ NƏSİB ETSİN!"



Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!

Bu fikir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında yer alıb.

Paylaşımda daha sonra deyilir: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!".

# Azərbaycan İlahiyyat İnstitutunda təhsilalanların aylıq yemək xərcinin məbləğinin və xüsusi geyim forması ilə təmin olunması normalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan İlahiyyat İnstitutunda bir təhsilalana verilən aylıq yemək xərci 60 manat məbləğində təsdiq edilsin.
2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş aylıq yemək xərci bakalavriat səviyyəsində təhsilalanlara 4 ildən, magistratura səviyyəsində təhsilalanlara 2 ildən, doktorantura səviyyəsində təhsilalanlara isə 3 ildən çox olmayan müddət üzrə ödənilsin.
3. "Azərbaycan İlahiyyat İnstitutunda təhsilalanların xüsusi geyim forması ilə təmin olunması normaları" təsdiq edilsin (əlavə olunur).
4. Müəyyən edilsin ki, bu Qərarın 1-ci və 2-ci hissələrinin icrası ilə bağlı xərclər dövlət büdcəsində publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsaitin bölgüsündə Azərbaycan İlahiyyat İnstitutuna ayrılan vəsait hesabına ödənilir.

**Əli Əsədov**
Azərbaycan Respublikasının Baş Naziri

*№ 322 Bakı şəhəri, 3 sentyabr 2020-ci il.*

# AZƏRBAYCANIN HAQQIDIR Kİ, ÖZ TORPAQLARINI, VƏTƏNDAŞLARINI QORUMAQ ÜÇÜN DÜŞMƏNƏ CAVAB VERSİN

"İşğalçı Ermənistanın hərbi birləşmələri bu gün cəbhə xəttinin bir sıra istiqamətlərindən Azərbaycanın mövqeyinə hücum edib, dinc insanlar və yaşayış məntəqələri ağır silahlardan atəşə tutulub. Bu hücumlar nəticəsində mülki vətəndaşlar da zərər görüb".

Bu fikirləri yap.org.az saytına YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlının sözlərinə görə, Azərbaycanın haqqıdır ki, öz torpaqlarını, vətəndaşlarını qorumaq üçün düşmənə cavab versin. O qeyd edib ki, cəbhədən verilən məlumata görə, düşmənə sarsıdıcı zərbələr edilib: "Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqa müraciətində Ermənistanın hərbi təxribatı və onun səbəbləri haqqında məlumat verib. Azərbaycan işğala məruz qalan ölkədir və işğal faktı bu gün də davam edir. Torpaqlarımızı azad etmək və ərazi bütövlüyünün bərpa olunması beynəlxalq hüquqa görə bizim haqqımızdır. Bizim mövqeyimiz ədalətlidir. Biz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik və ümid edirəm ki, bu ədalətli mövqeyimiz beynəlxalq birlik tərəfindən müdafiə olunacaq. Bu gün Azərbaycan xalqı ölkə Pezidenti, Ali Baş Komandan İlham Əliyevə, ordumuza inanır. Xalqımız, vətəndaşlarımız ordumuzun yanındadır, insanlar bu gün döyüşə getməyə hazır olduqlarını nümayiş etdirirlər. Hər kəs milli birlik naminə hər şeyə hazır olduğunu göstərir. Bizim işimiz haqq işidir, ona görə də qələbə Azərbaycanladır".

# AZƏRBAYCAN PREZİDENTİNİN KÖMƏKÇİSİ GƏNCƏDƏ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİB



Sentyabrın 4-də Gəncə şəhərindəki İmamzadə dini kompleksində bir qrup din xadimi ilə görüş keçirilib.

Görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, ayrı-ayrı regionlardan olan din xadimləri, respublikanın müxtəlif məscidlərinin imamları iştirak ediblər.

Görüşdə çıxış edən Anar Ələkbərov müstəqillik illərində dövlət-din münasibətlərinin yeni müstəvidə formalaşdığını, Azərbaycanda dövlət səviyyəsində dinə xüsusi diqqət göstərildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim bu sahəyə dəstək göstərir. Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət və həssaslıqla yanaşır. Qeyd olunub ki, Azərbaycanda dövlət-din münasibətləri, dinlərarası əlaqələr sağlam zəmin üzərində qurulub. Bu, dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu gün dünyanın bir çox ölkəsində dini zəmində zorakılığın, münaqişələrin şahidi olsaq da, Azərbaycan bu baxımdan nümunəvi ölkə kimi seçilir. Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkə olduğu, bütün dinlərin, etnik qrupların nümayəndələrinin bir ailə kimi sülh, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığı qeyd edilib.

Bu sahədəki nailiyyətlərimizin dünya birliyində yüksək qiymətləndirildiyi, Bakıda dünya dini liderlərinin birinci və ikinci sammitlərinin keçirildiyi, 2017-ci ildə Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildiyi, bütün bu kimi tədbirlərin dini tolerantlıq sahəsindəki uğurlarımızın təzahürü olduğu diqqətə çatdırılıb.

Anar Ələkbərov ölkəmizin, demək olar ki, bütün bölgələrində, hər bir rayonunda məscidlərin inşa olunduğunu və ya bərpa edildiyini, yeni məscidlərin açıldığını bildirib. Bütün bunlar bir daha göstərir ki, dövlət siyasətində tarixi keçmişimizin unudulmaması, gələcək nəsillərin milli-mənəvi dəyərlərə daha çox bağlanması mühüm yer tutur. Son illər Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində, İmamzadə dini kompleksində geniş tikinti və yenidənqurma işlərinin həyata keçirildiyi bildirilib. Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin tapşırığı ilə Şuşa məscidinin bənzəri olan məscidin tikilməsinin və uzun fasilədən sonra burada azan səsinin ucalmasının əlamətdar hadisə olduğu diqqətə çatdırılıb.

Məscidlərlə yanaşı, kilsələr və sinaqoqların da təmir edilyni zamanda, Azərbaycanda dövlət qeydiyyatından keçən dini icmaların fəaliyyəti üçün şərait yaradıldığı, mövcud problemlərin həlli istiqamətində mühüm addımlar atıldığı bildirilib.

Bu istiqamətdə ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanıb. Fond reallaşdırdığı layihələrlə müxtəlif xalqlar və dinlər arasında dostluq, həmrəylik kimi dəyərlərin bərqərar olmasına öz töhfələrini verməkdədir. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılıb. Hazırda isə Heydər Əliyev Fondu tərəfindən Bakının Xəzər rayonunun Binə qəsəbəsində Möhsün Səlim məscidində təmir işləri aparılır, Şamaxı rayonundakı Pirsaat Baba ziyarətgahında yenidənqurma işləri həyata keçirilir, ziyarətgahın ərazisində yeni məscid binası inşa olunur. Həmçinin Şamaxıdakı Pir Ömər Sultan ziyarətgahında arxeoloji tədqiqatlar aparılıb və türbənin qorunub saxlanılması məqsədilə konservasiya işlərinin layihələndirilməsi davam edir. Şəki şəhərindəki Xan məscidində təmir-bərpa işlərinə başlanılıb, Qəbələ rayonunun Nic kəndində qədim alban kilsəsində yenidənqurma işləri aparılır, İsmayıllı rayonunun Lahıc qəsəbəsində Bədöyün məscidi əsaslı təmir olunur.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və dinlərarası dialoqun genişləndirilməsi istiqamətində səyləri vurğulanıb. Bildirilib ki, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xidmətləri dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Anar Ələkbərov COVID-19 pandemiyasının bütün sahələrə, o cümlədən dindarların həyatına da təsirsiz ötüşmədiyini deyib. Qeyd edib ki, yeni növ koronavirusun geniş yayılması səbəbindən hazırda bütün dünyada, o cümlədən ölkəmizdə kütləvi tədbirlər keçirilmir. Beynəlxalq təcrübə və ilk növbədə, insan həyatının qorunması əsas götürülərək, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən bu ilin mart ayından məscid, kilsə, sinaqoq və ziyarətgahlarda ibadətlər müvəqqəti olaraq dayandırılıb.

İnsanların sağlamlığının qorunması baxımından atılmış bu addımın istər din xadimləri, istərsə də əhali tərəfindən anlayışla qəbul olunduğu minnətdarlıqla diqqətə çatdırılıb. Qeyd olunub ki, virus səbəbindən dünya zəvvarlarının, o cümlədən çoxsaylı vətəndaşlarımızın Həcc ziyarəti arzusu baş tutmayıb, Məhərrəmlik ayı ərzində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməməsi qərara alınıb, eyni zamanda, Ramazan və Qurban bayramlarında dini ayin və mərasimlərin keçirilməsi mümkün olmayıb. İnsanlar məscidlərdə bayram namazını birlikdə qıla bilməsə də, televiziya kanallarında müxtəlif məscidlərin imamlarının iştirakı ilə qılınan namaz canlı nümayiş olunub və bu da pandemiya şəraitində insanlar tərəfindən rəğbətlə qarşılanıb.

Anar Ələkbərov qeyd edib ki, pandemiyanın başlanğıc mərhələsində karantin rejimi və tətbiq olunan bir sıra məhdudiyyətlərin iqtisadi sahədə çətinliklərə yol açacağı proqnozlaşdırılsa da, Prezident İlham Əliyev vətəndaşların sağlamlığının qorunmasını prioritet olaraq müəyyənləşdirib, hökumətin fəaliyyəti də bu strategiya üzərində qurulub.

Azərbaycan Prezidentinin köməkçisi ötən dövr ərzində Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahda aparılmış müzakirələr və görülən işlər barədə məlumat verib. Bildirib ki, ötən müddət ərzində xüsusi rejimli xəstəxanalar lazımi avadanlıqla təchiz edilib, təlimlər keçirilərək kadr hazırlığı təmin olunub, əhalinin ehtiyacları qarşılanıb, xaricdəki soydaşlarımızın ölkəyə gətirilməsi təşkil olunub. Qəbul edilən qərarlar və görülən tədbirlər nəticəsində xəstəliyin nəzarət altına alındığı, səhiyyə sisteminin mövcud çağırışa uyğun olaraq qurulduğu qeyd edilib.

Görüşdə din xadimlərinin fikirləri və təklifləri dinlənilib, belə müzakirələrin əhəmiyyəti qeyd olunub. Çıxışçılar dövlət tərəfindən dinə və din xadimlərinə olan diqqəti yüksək dəyərləndiriblər və ölkəmizdə bu sahədə görüləcək işlərə dair müzakirələr aparılıb.

# MÜBARİZ QURBANLI: ERMƏNİLƏR İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİMİZDƏ AZƏRBAYCAN VƏ İSLAM İZLƏRİNİ YOX ETMƏYƏ ÇALIŞIRLAR



"Harada Azərbaycan və Türkiyənin uğuru varsa, orada biz mütləq Ermənistanın düşmənçiliyini görürük. Ermənistan açıq şəkildə Azərbaycanın əleyhinə mənfur münasibət sərgiləyir və biz bunun dəfələrlə şahidi olmuşuq."

Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Azərbaycan Televiziyasının "Əsas məsələ" verilişində səsləndirib.

Komitə sədri əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin COVID-19 pandemiyası ilə bağlı təşəbbüsü Birləşmiş Millətlər Təşkilatı səviyyəsində müzakirə edildikdə, xüsusi sessiyanın çağırılması məsələsi ortaya çıxdıqda da Ermənistan buna qarşı çıxmışdı və özünü çox gülünc vəziyyətə salmışdı.

Verilişdə ermənilərin işğal altında olan ərazilərimizdə yüzlərlə tarixi-dini abidələrimizə qarşı törətdiyi vandalizm aktlarına toxunan Mübariz Qurbanlı vurğulayıb ki, çoxları İslam həmrəyliyindən və birliyindən danışır, sözdə bunu həmişə ifadə edir, İslam Əməkdaşlıq Təşkilatında İslam həmrəyliyini nümayiş etdirən qətnamələrə imza atır. "Amma bəzən əməldə başqa bir şeyləri görməkdəyik. Azərbaycanın işğal olunmuş əraziləri, o cümlədən indi Ermənistan adlanan, lakin vaxtilə Azərbaycan xalqına məxsus olan Qərbi Azərbaycan ərazilərində ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan və İslam izlərini yox etməyə çalışırlar. Bunu edərkən də tarixi abidələri dağıdırlar, o cümlədən Qafqaz Albaniyasına aid olan tarixi abidələri özününküləşdirməyə, hətta provaslav kilsələrini də qriqorian kilsələrə çevirməyə çalışırlar. Şuşada vaxtilə rus-provaslav kilsəsi mövcud olub. Bu abidəni də özününküləşdirmək üçün addımlar atıblar və kilsədən provaslav izlərini siliblər", - deyə Komitə sədri bildirib.

Məscidlərin dağıdılması və təhqir olunması ilə bağlı kifayət qədər faktların olduğunu diqqətə çatdıran DQİDK sədri Ermənistana tarixi İslam mədəniyyəti abidələrini hifz etmək adı altında köməklik göstərənlərin olduğunu dilə gətirib: "Bir məscidi təmir etməklə, Azərbaycanın adından çıxarıb başqa ölkənin məscidi adı altında göstərməklə Ermənistan guya İslam mədəniyyətinə tolerant münasibətini nümayiş etdirir. Bu, saxtakarlıqdan başqa bir şey deyil. Faktiki olaraq, orada bütün məscidlər, tarixi abidələr dağıdılıb və İslam həmrəyliyi adı altında fəaliyyət göstərən ölkələr mütləq bundan nəticə çıxarmalıdır. Ümumiyyətlə, işğal olunmuş ərazilərdə tarixi abidələrin dağıdılması, özününküləşdirilməsi, o cümlədən bu ərazilərdə qeyri-qanuni yol ilə məskunlaşdırılmanın həyata keçirilməsi beynəlxalq sənədlərdə tamamilə pislənən bir hərəkətdir".

# DÖVLƏT KOMİTƏSİ SƏDRİNİN MƏQALƏSİ PAKİSTANIN BEYNƏLXALQ NÜFUZLU MEDİA PORTALINDA DƏRC EDİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Azərbaycan - milli-mənəvi dəyərlərin qorunduğu və dini tolerantlığın yüksək səviyyədə təmin olunduğu ölkə" başlıqlı məqaləsi Pakistanın beynəlxalq nüfuzlu "https://www.parhlo.com/" media portalında dərc edilib.

Məqalədə Azərbaycandakı mövcud nümunəvi dini tolerantlıq mühitindən, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, milli-mənəvi dəyərlərimizə söykənən və hazırda prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din siyasətindən, eləcə də Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasəti, bu ilin iyul ayında Tovuzda baş verən erməni təxribatından bəhs edilir.

Yazıda ölkəmizdə dini tolerantlıq və multikulturalizm ənənələrinin layiqli şəkildə qorunub saxlanılması və bu sahədə ölkə Prezidentinin uğurlu siyasəti diqqətə çatdırılaraq vurğulanıb ki, buna praktiki sübut dövlət başçısının Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasıdır.

Eyni zamanda məqalədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanda elm, təhsil və mədəniyyət sahələrində həyata keçirilən layihələrə yetirdiyi xüsusi diqqətə, milli-mənəvi dəyərlərimizin təkcə Azərbaycanda deyil, həm də dünyada tanıdılmasında oynadığı xüsusi rola toxunulub. Həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə çox sayda məscid, kilsə və digər dini abidələrin bərpa edilərək istifadəyə verilməsi barədə dolğun məlumatlar yer alıb.

Sözügedən məqalədə tarix boyu ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, Azərbaycan torpaqlarını işğal etməsi, etnik təmizləmə siyasəti aparması, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozması, həmçinin dini-mədəni abidələrimizin işğalçılar tərəfindən dağıdılması qəti şəkildə pislənilib. Həmçinin Azərbaycanın din və mədəniyyətlərarası dialoqa xüsusi töhfə verməsi və bu sahədə müxtəlif nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi diqqətə çatdırılıb. Vurğulanıb ki, milli-mənəvi dəyərlərin, dini tolerantlığın qorunması və təbliği dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir.

# DÖVLƏT KOMİTƏSİNİN KÖNÜLLÜLƏRİ İLƏ ONLAYN FORMATDA GÖRÜŞ KEÇİRİLİB

Sentyabrın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının Komitənin "Könüllü fəaliyyət" layihəsinin iştirakçıları ilə onlayn formatda görüşü keçirilib.




Mübariz Qurbanlı Dövlət Komitəsinin öz fəaliyyətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin və könüllülərin iştirakını əsas götürdüyünü bildirib. M.Qurbanlı dövlət tərəfindən həyata keçirilən gənclər siyasəti barədə məlumat verərək qeyd edib ki, DQİDK və tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu, eləcə də İlahiyyat İnstitutu könüllülərin və gənclərin fəaliyyətə cəlb edilmələri üçün zəruri tədbirlər görüblər. Mövcud pandemiya müddətində hər iki qurumun könüllüləri istər xeyriyyə məqsədilə təşkil edilmiş tədbirlərdə, istərsə də keçirilən layihələrdə yaxından iştirak ediblər.

Komitə sədri bundan sonra da könüllü gənclərin Dövlət Komitəsi tərəfindən reallaşdırılacaq layihələrə cəlb ediləcəyini, mövcud pandemiya dövründə isə Komitə rəhbərliyi və rəsmiləri ilə mütəmadi olaraq onlayn formatda görüşlərinin keçiriləcəyini qeyd edib. Ölkəmizdə könüllülük proqramının çox yüksək səviyyədə təşkil edildiyini vurğulayan sədr Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da bu sahəyə göstərdiyi xüsusi diqqətdən, bu istiqamətdə həyata keçirdiyi tədbirlərdən və proqramın sferasının son illər necə genişləndiyindən söhbət açıb.

Dövlət Komitəsinin "Könüllülük fəaliyyəti" layihəsinə qoşulduqları üçün gənclərə təşəkkürünü bildirən Mübariz Qurbanlı DQİDK-nın bütün fəaliyyət istiqamətləri, iş mühiti barədə geniş məlumat əldə etmək imkanı verən bu önəmli təşəbbüsün onların gələcək fəaliyyətlərinə öz müsbət təsirini göstərəcəyinə ümidvar olduğunu deyib.

Könüllü kimi fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən xüsusi sertifikatlar veriləcək ki, bu da onların əmək fəaliyyətinə uğurlu bir keçid fürsəti olacaq.

# "İSLAM DİNİ VƏ ONUN ALİ DƏYƏRLƏRİNDƏN SİYASİ MƏQSƏDLƏRLƏ İSTİFADƏ EDİLMƏSİ QƏBULEDİLMƏZDİR"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının www.etikxeber.az saytına müsahibəsi***

**- Mübariz müəllim, Sizinlə olan sonuncu müsahibəmizdən təxminən bir ildən bir qədər artıq vaxt keçir. Ötən bu müddət ərzində ölkədəki dini durumu necə dəyərləndirərdiniz, dini durumu tam qənaətbaxş hesab etmək olarmı? Xüsusilə son 6-7 aylıq pandemiya dövründə dini durumla bağlı məsələdə hansısa bir dəyişiklik, ölkənin din siyasətinə kənardan və ya daxildən hansısa açıq və gizli təhdidlər varmı?**



- Dini sfera cəmiyyətin dinamik proseslərinin yaşandığı sahələrdəndir. Bu sahə yalnız daxilində baş verən hadisələrin deyil, eyni zamanda sosial, siyasi və iqtisadi proseslərin təsirinə məruz qalır. Son bir ildə dünyada, o cümlədən də bizə yaxın coğrafiyada bir sıra mühüm hadisələr baş verdi ki, onların Azərbaycanın dini mühitinə də müəyyən təsirləri oldu. Bildiyiniz kimi, bu gün COVID-19 pandemiyası qlobal bəla kimi dünya əhalisinin sağlamlığına təhdid yaratmaqla yanaşı, həm də bir sıra sahələrə, o cümlədən dini sahəyə də təsir edib. Bütün dünyanı cənginə alan öldürücü virus, təəssüflər olsun ki, ölkəmizdən də yan keçmədi. Pandemiya ilə əlaqədar ilk gündən Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə görülən tədbirlərin, eyni zamanda prosesin gedişatında qəbul edilən qərarların mərkəzində Azərbaycan vətəndaşının sağlamlığı və təhlükəsizliyi kimi ali məqsədin dayandığının şahidi olduq.

Həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın koronavirus pandemiyasının ölkədə yayılması ilə bağlı Azərbaycan xalqına çağırışları, məhz onun təşəbbüsü ilə xalq arasında xeyirxahlıq və ümid fondu kimi tanınan Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər xüsusilə qeyd edilməlidir. Nazirlər Kabinetinin 13 mart 2020-ci il tarixli qərarı ilə yas mərasimləri, 17 mart 2020-ci il tarixli qərarı ilə qapalı məkanlarda kütləvi tədbirlərin keçirilməsi, 30 mart 2020-ci il tarixli qərarı ilə isə dəfn mərasimləri istisna olmaqla, dini ritual xidmətləri qadağan olundu. Lakin vurğulamalıyıq ki, ölkəmizdəki dini icmalar və ruhanilər sözügedən qərarlardan öncə məsələyə münasibət bildirmişdi. Belə ki, cari ilin mart ayının 5-i və 18-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) dini konfessiya rəhbərlərinin, İdarənin bölgə qazıları və səlahiyyətli nümayəndələrinin iştirakı ilə iclaslar keçirilərək din xadimlərinə yas mərasimləri və ehsan süfrələrində iştirak etməməklə bağlı tövsiyələr verilib, ibadət evlərinin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı bəyanat qəbul edilib.

Ötən müddətdə Ramazan ayı mərasimləri, Qurban bayramı, Pasxa, Pesax və digər əlamətdar günlər ibadət evlərində keçirilmədi. Lakin nəzərinizə çatdırmalıyam ki, bu hal yalnız Azərbaycanda baş vermədi. Hətta hər bir mömin üçün vacib əməllərdən sayılan Həcc ziyarəti çox məhdud çərçivədə, yalnız Səudiyyə Ərəbistanında olan azsaylı müsəlmanlar tərəfindən yerinə yetirildi, dünya müsəlmanlarının Kəbə evini ziyarət etmələrinə icazə verilmədi. Pasxa günündə Vatikanın Müqəddəs Pyotr meydanına zəvvarların ziyarəti qadağan olundu. Eyni zamanda, digər müsəlman ölkələrində yerləşən, azərbaycanlı zəvvarların da ziyarət etdiyi müqəddəs məkanların fəaliyyətinə müəyyən məhdudiyyətlər tətbiq edildi.

Mövcud şəraitdə Nazirlər Kabinetinin yanında Operativ Qərargahın təlimatına uyğun olaraq Azərbaycanda bütün dini ibadətgahlarda dini ayinlərin icrasının dayandırılması, yas mərasimlərinə qoyulan qadağalar barədə dini maarifləndirmə işlərinin aparılmasına xüsusi diqqət yetirilib. Komitə rəhbərliyi və əməkdaşlarının cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində müsahibələri, çağırışları, açıqlamaları yayımlanıb. Bu müddət ərzində DQİDK əməkdaşları tərəfindən sosial şəbəkələr vasitəsilə virusun qarşısının alınması məqsədilə qoyulan tələblərə riayət etmək, dindarlarımızı Operativ Qərargahın bu barədə tövsiyələrini dinləməyinin vacibliyi barədə çağırışlar edilib. Dövlət Komitəsinin nəzdində olan qurumlar - Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutu da bu istiqamətdə fəaliyyət göstəriblər.

Bu yöndə QMİ ilə birlikdə İdarənin Qazılar Şurasının üzvləri və səlahiyyətli nümayəndələri, həmçinin dini konfessiyaların rəhbərlərinin iştirakı ilə onlayn iclaslar keçirilib. Tədbirlərdə dini qurumların rəhbərlərinə dünyanın üzləşdiyi pandemiya şəraitində insanları birliyə və virusun qarşısının alınması məqsədilə qoyulan tələblərə əməl etmək, müxtəlif dini konfessiyaların nümayəndələrinə, din xadimlərinə koronavirusa qarşı mübarizədə həmrəylik nümayiş etdirmələri üçün sosial şəbəkələr, yaxud televiziyalara canlı yayım vasitəsilə qoşulmaqla dini maarifləndirmə işlərini aparmaları tövsiyə edilib. Eyni zamanda bu xüsusda Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə onlayn maarifləndirmə tədbirləri baş tutub.

**- Hazırda Azərbaycanda Məhərrəmlik ayıdır, məhərrəmliyin ən vacib məqamlarından olan Aşura artıq geridə qalıb. Kütləvi olmasa da, ancaq Aşura günü yenə də ölkədəki karantin rejimini pozmağa, Aşura mərasimini keçirməyə cəhdlər oldu. Şəxsən özüm bunun şahidiyəm. Sizcə, bunlar məqsədli, idarəolunan bir hərəkət, davranış idi, yoxsa bilməməzlikdən, yaxud qaydaları sadəcə pozmaqdan irəli gələn bir hal idi.**

- Məhərrəmlik mərasimləri əsrlərdir ki, Azərbaycan xalqı tərəfindən qeyd edilir. Xalqımız daim İslam dininə, Məhəmməd peyğəmbər və onun ailəsinə hörmət və ehtiram göstərib. Müstəqilliyimizi yenidən qazandıqdan sonra vətəndaşlarımızın dini ayinləri yerinə yetirmələri üçün bütün şərait yaradılıb. Məscidlər, ziyarətgahlar və digər ibadət evləri möminlərin ixtiyarına verilib. Hər il dini mərasim və əlamətdar günlər, həmçinin, təziyə məclisləri ibadət ocaqlarında sərbəst və heç bir məhdudiyyət olmadan yerinə yetirilib. Ümummilli Lider Heydər Əliyev özü şəxsən bu mərasimlərdə iştirak edib. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dəfələrlə ibadət evlərini ziyarət edib, onların təmiri və bərpası üçün göstəriş veriblər.

Bu il məhərrəmlik mərasimləri pandemiya dövrünə təsadüf etdi. Bildiyiniz kimi, karantin rejimi ilə əlaqədar Operativ Qərargahın qərarına əsasən, qapalı məkanlarda kütləvi tədbirlərin keçirilməsi və dini ritual xidmətlər qadağan edilib. Karantin rejimi dövründə dini ayin və mərasimlərin keçirilmə qaydaları məsələsi avqust ayının 20-də QMİ və DQİDK tərəfindən videokonfrans formatında təşkil edilən məhərrəm ayına həsr olunan iclasın əsas mövzusu olub.

Tədbirdə qəbul edilən QMİ-nin Qazılar Şurasının müraciətində bir sıra önəmli məqamlar öz əksini tapdı. Aşura kimi, ənənəvi olaraq böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl olunmasının təmini qeyri-mümkün olan mərasimin insanların virusa yoluxma sayını artırma ehtimalı baxımından böyük təhlükə yarada biləcəyini nəzərə alaraq, bu il məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməyəcəyi, QMİ-nin yerlərdəki qazı, səlahiyyətli nümayəndə və imamlarının bu tövsiyələri dindarlara çatdırmaları bildirildi.

Vurğulandı ki, hər kəs pandemiyaya dair hökumətimiz tərəfindən müəyyən edilmiş bütün zəruri qaydalara əməl etməli, verilmiş tövsiyələri hər kəsə təlqin etməli, xəstəlik təhlükəsinin qarşısının alınması, tezliklə sovuşması üçün əlimizdən gələni əsirgəməməliyik. Həmçinin Dövlət Komitəsi tərəfindən televiziya kanallarında din xadimlərinin insanların mənəvi ehtiyac duyduğu çıxışlarına imkan və mütəmadi qaydada şərait yaradılması məsələsi diqqətdə saxlanılıb, ölkəmizin Mərkəzi Qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verilməsi təlqin olunub, eyni zamanda DQİDK və Azərbaycan Gənclər Fondunun birgə təşkilatçılığı ilə gənclər üçün "Pandemiya şəraitində dini mərasimlər" adlı, eləcə də bölgələrdə onlayn maarifləndirici tədbirlər keçirilib…

**- Bəs, pozuntular?…**

- Bəzi pozuntular olsa da, Aşura ilə bağlı builki mərasimlər ümumən karantin rejimi qaydalarına uyğun təşkil olundu. Möminlərimizin mütləq əksəriyyəti təziyələrini evlərində ailələri ilə birlikdə qeyd etdilər. Din xadimləri internet resursları vasitəsilə canlı yayımlar etdilər, İmam Hüseyn şəhadətinin mahiyyəti, o cümlədən İslam dininin prinsipləri barədə maarifləndirmə işi apardılar. Aşura günü müşahidə edilən pozuntulara gəlincə, yer seçimlərinə və məclis üslublarına əsasən onlardan bəzilərinin müəyyən maraqlara xidmət etdiklərini deyə bilərik. Ancaq Azərbaycan xalqı bir daha nümayiş etdirdi ki, İslam dini və onun ali dəyərlərindən siyasi məqsədlərlə istifadə edilməsi qəbuledilməzdir.

# QƏHRƏMANLAR CAN VERƏR – YURDU YAŞATMAQ ÜÇÜN!

Qurani-Kərim buyurur: **"Zülmə məruz qaldıqlarına görə vuruşanlara izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir. O kəslərə ki, haqsız yerə, ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə yurdlarından çıxarılmışlar"** (Həcc, 39-40). **"Onlar sizi çıxartdıqları yerdən (yurddan) siz də onları çıxardın"** (Bəqərə, 191)

Əlbəttə ki, torpağı işğal altında olan bir ölkə, Azərbaycanımız üçün bu Quran ayələri böyük əhəmiyyət kəsb edir. Biz dinimizin istinad qaynağı olan Qurani-Kərim ayələri və hədislərdən Vətən və millət məfhumuna nə qədər dəyər verildiyini öyrənə bilərik. Millət bölünə bilinmədiyi kimi, Vətən də bölünə bilməz. Vətən və millət bir-birindən ayrılmaz anlayışlardır. Vətən və millət ruh ilə bədən kimi vahid tamın iki hissəsdir. Vətənsiz milli dəyərləri qoruyub saxlamaq çətindir. Vətənin bölünməzliyində və Vətənə məhəbbətin möhkəmləndirilməsində, şübhəsiz ki, dini amil də mühüm rol oynayır. Milləti yetişdirən də məhz din, dil, mədəniyyət, tarix birliyi, tərbiyə və adət-ənənələrin ümumiliyidir. Əsl mömin vətənpərvər olmalı, Vətənini sevməli, bir-birinə hörmət bəsləməli, Vətəninin inkişafı və çiçəklənməsi naminə əlindən gələni əsirgəməməlidir. Çünki Vətən ana qədər müqəddəs, ana qədər pak, ana qədər dəyərlidir. Nahaq yerə vətənimizə Ana Vətən deyib çağırmırıq.

Vətən nədir?.. Vətən - müəyyən mədəni-mənəvi ənənələrə, birgə müqəddərata və ümumi tarixə keçmişə malik olan, gələcəyə eyni gözlə baxan xalqın yaşadığı müəyyən hüdudlarla məhdudlaşan coğrafi ərazidir. Onun rifahı naminə tər töküb çalışmaq və Vətən yolunda canını fəda etmək ən böyük vətənpərvərlikdir. Vətən, millət və din ayrılmaz anlayışlardır. Vətənsiz millət dağılar, millətsiz ölkə isə ölkə sayılmaz. Din olmadıqda isə ölkədə nizamsızlıq başlanar. Dinsizlik isə millətin məhv olmasına gətirib çıxarar.

Qurani-Kərim bəyan edir ki, yer üzərində yalnız Vətənə məhəbbətlərini itirməyən xalqlar azad yaşayır və sivilizasiya yaradırlar. Eyni zamanda, Allahın Kitabı bizə tövsiyə edir ki, mədəniyyətləri ilə birgə itib getmiş xalqların və qövmlərin aqibətlərindən ibrət alaq.

Vətənə və millətə məhəbbət hər kəsin borcudur. Vətənə məhəbbət imandandır. Vətən müqəddəsdir. Hər bir müsəlman tərəddüd etmədən Vətəninin müdafiəsinə qalxmalı, canını və malını Vətən yolunda fəda etməlidir. Bunu müqəddəs kitabımız Qurani-Kərim əmr edir. Vətənə məhəbbət təkcə torpağa məhəbbət demək deyil. Vətənə məhəbbət şəhidliyə hazırlıq, fədakarlıq tələb edir. İslam dini bizə əmr edir ki. Vətəni sevək və onu müdafiə edək. Əlbəttə ki, bu bizim müqəddəs borcumuzdur. Bundan ötrü hər şeydən əvvəl milli birliyi qoruyub saxlamaq, təfriqədən uzaq olmaq, dövlətimizin, onun rəhbərinin ətrafında sıx birləşmək lazımdır. Peyğəmbərimiz (s) demişdir: *"Ey, insanlar! Düşmənlə qarşılaşmağı təmənna etməyin və Allaha dua edin ki, sizi bundan qorusun. Amma elə ki, düşmənlə qarşılaşdınız, mətanətli olun və bilin ki, Cənnət qılıncların kölgəsi altındadır."*



Qurani-Kərim əmr edir ki, Vətən düşmənlərdən təmizlən**məli, düşmən işğal etdiyi ərazilərdən qovulmalıdır: "(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın, Allah həddi aşanları sevməz!"** (Bəqərə, 190). Həmişə Vətəni müdafiə etmək üçün hazır olmaq lazımdır. Qurani-Kərim öyrədir ki: **"(Ey möminlər!) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz!"** (Ənfal, 60). Bu ayədən aydın görünür ki, müsəlmanlar düşməni dəf etməyə hazır olmaq əmri almışlar. Deməli, İslam dini ordunu düşmənin silahından daha mükəmməl silahla təchiz etməyi vacib sayır və bunu Vətənin müdafiəsi üçün təmimnat hesab edir.

İslam dinində şəhid və qəhrəmanların yüksək məqamı haqqında Quran ayələri və hədislər də vardır. Müqəddəs kitabımızda buyurulur: **"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Xeyr, onlar özlərinin Rəbbi yanında diri olub ruzi yeyirlər. Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ onlara yetişməmiş kəslərin heç bir qorxusu olmayacağına və qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər"** (Ali-İmran, 169-170). Qurani-Kərimə görə, əgər şəhid Allah yolunda vuruşaraq öləndirsə, Vətən qarşısında borcunu ləyaqətlə verib sağ-salamat evə dönən insan qəhrəmandır. Allah yolunda xarici və daxili düşmənlərlə vuruşanlar, ölkəsini və xalqını müdafiə edənlər şəhiddir, döyüşlərdən sağ qayıdanlar isə qəhrəmanlardır. Şəhidlər və qəhrəmanlar Peyğəmbərlərdən sonra ən yüksək məqamda dururlar, şəhidlər dünyanın ən əziz neməti olan həyatlarını Allah yolunda və Vətən naminə fəda etmiş, qəhrəmanlar isə döyüşə şəhid olmaq ümidi ilə çıxmışlar. Peyğəmbər (s) buyurmuşdur: *"Qiyamət günü mən şəhidlərin olduqca əziz canlarını fəda etdiklərinə şahidlik edəcəyəm. Şəhidləri qanlı köynəklərində dəfn edin!"* Rəsulullah (s) başqa bir hədisdə isə şəhidlik məqamını belə təsvir etmişdir: *"Cənnətə düşdükdən sonra heç kəs yer üzünün bütün nemətlərini ona versələr də dünya həyatına dönmək istəməyəcək, ancaq şəhidlər şəhidliyinin üstünlüyünü görüb dünya həyatına qayıtmaq istərlər ki, daha on dəfə şəhid olsunlar"*. Babalarımız da Peyğəmbərimizin (s) verdiyi bu müjdədən həmişə xəbərdar olmuş və Allahdan hər zaman şəhid ölümü diləmişlər. Şəhidlik səadəti onlara nəsib olmadıqda isə döyüşlərdən qəhrəman kimi qayıtdıqları ilə təskinlik tapmışlar. "Şəhidlik şərbətindən içmək" onların ən böyük arzusu olmuşdur. Rəsulullah (s) başqa hədisdə buyurmuşdur: *"Allah şəhidlərin borclarından savayı bütün günahlarından keçər"*.

Allahın peyğəmbəri hədislərində insanların Vətən uğrunda birliyini həmişə ön plana çəkmiş və demişdir: "Sizə vəsiyyətim budur ki, bir olasınız, parçalanmayasınız, çünki şeytan tənha yaşayan kəsə yaxın, birlikdə olan iki adamdan uzaq olar. Kim Cənnətin ortasında olmaq istəyirsə, insanlarla birlikdə yaşasın".

**"Cəmiyyət və Din"**

# CƏBHƏDƏN XƏBƏRLƏR

## 30 SENTYABR

Sentyabrın 30-da səhər saat 08.00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutub.

İlkin məlumata görə mülki infrastruktura ziyan dəyib və yaralılar var.

***

İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.

Sentyabrın 27-dən bu gün (30 sentyabr – red.) səhər saatlarınadək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tankəleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Sentyabrın 29-da gedən döyüşlər ərzində Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 S-300 zenit-raket qurğusu sıradan çıxarılıb.

İtirilmiş mövqeləri geri qaytarmaq üçün Madagiz istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən sentyabrın 30-u səhər saatlarından başlayaraq hücuma cəhd göstərib. Düşmənin bu fəaliyyətinin qarşısı alınır və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilir.

***

Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları məhv edilib.

***

Düşmən Goranboy rayonunu artilleriya atəşinə tutur.

Ermənistan silahlı qüvvələrinin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini atəşə tutmağa başlayıb. Bölmələrimiz düşmənə qarşı adekvat cavab tədbirləri görüb.

***

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz Müdafiə Nazirliyinə müraciət edərək Ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildiriblər.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır.

Bildiririk ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və mühəribə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

***

Düşmənin ehtiyat qüvvələri məhv edilib. Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istəyib. Köməyə gələn ehtiyat qüvvələr, düşmənin iki tankı tərəfimizdən aşkar olunaraq atəş zərbəsi ilə məhv edilib.

***

Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 10-cu dağ atıcı diviziyasının 5-ci dağ atıcı alayının Ağdərə yaşayış məntəqəsində yerləşən qərargahına zərbə endirib.

Düşmən canlı qüvvə və hərbi texnika baxımından xeyli sayda itki verib.

***

Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin Füzuli istiqamətində yerləşən 4-cü taborunu ağır artilleriya atəşinə məruz qoyub.

Düşmən canlı qüvvə və hərbi texnika baxımından xeyli sayda itki verib.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "OSA" zenit-raket kompleksi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını və 2 ədəd D-20 haubitsa-topu məhv edilib.

Mənbə: **Azərbaycan Respublikası Müdafiə Nazirliyi**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2017

## ƏMMAN

Zəngin qədim tarixə malik müsəlman ölkələrindən biri də İordaniyadır. Ölkənin rəsmi adı İordaniya Haşimilər Krallığıdır (ərəbcə əl-Məmləkə əl-Ürdüniyyə əl-Haşimi). İordan çayının adından götürülmüş “ürdün” sözü sami dilindən tərcümədə “axın” və “şırıldayan” mənalarını verir. İordaniya Cənubi-Qərbi Asiyada, Aralıq dənizinin şərqində yerləşir və İraq, Suriya, Səudiyyə Ərəbistanı, İsraillə həmsərhəddir. Ölkənin cənubdan kiçik məsafədə Qırmızı dənizin Əqəbə körfəzinə də çıxışı var. Sahəsi 89,3 min kv. km, əhalisi isə 10.2 milyondur. Bu göstəricilərə ilə dünya sıralamasında əhalisinə görə 88-ci, ərazisinə görə 112-ci yerdədir. Əhalinin 95%-i ərəbdir. Ölkənin rəsmi dili ərəb, rəsmi valyutası isə İordaniya dinarıdır.

İordaniya tolerant ölkə hesab olunur. Əhalinin təxminən 92% müsəlmandır. Müsəlmanların 1%-i şiələrdir, qalanlar isə sünniliyin şafii qoluna mənsubdurlar. Xristianlar 6% təşkil edir, əsasən, pravoslav və katolikdirlər, qalan hissəsi isə digər dinlərin nümayəndələridir.

İordaniya ərazisinin çox hissəsini səhra və yarımsəhralar tutur. Ərazisi faydalı qazıntılarla o qədər də zəngin deyil. Burada yay isti və quru, qış yumşaq və nisbətən rütubətli keçir. İlin təqribən 6 ayı havalar çox isti və quru olur. Ölkə ərazisində yağıntılara oktyabrdan-aprelə qədər təsadüf edilir.

İordaniyanın daimi axarlı su arteriyası ümumi uzunluğu 252 km olan İordan çayıdır. Çay mənbəyini Hərmun dağ massivindəki Cəbələş-Şeyl silsiləsindən götürür və Ölü dənizə tökülür. Bu çay üzərində su elektrik stansiyası da tikilmişdir. Xristianların və müsəlmanların müqəddəs yazılarında İordan çayı haqqında çoxlu əfsanələr, rəvayətlər mövcuddur. Xristianların bəzi müqəddəs yazılarında göstərilir ki, İsa peyğəmbər İordan çayında xaç suyuna salınmışdır. Dünya mədəniyyətinin qədim ocaqlarından sayılan çayın qərb sahilləri bu ərazilərin qədim mədəni sivilizasiya mərkəzi olmasından xəbər verir.

İordaniyanı məşhur edən digər təbiət hadisəsi isə Cənub-Qərbi Asiyanın axarsız göllərindən biri, bəzi mənbələrdə Lut gölü də adlandırılan Ölü dənizdir. İordaniyalılar üçün müqəddəs sayılan, haqqında çoxlu əfsanə söylənilən bu dəniz hazırda məhv olmaqdadır. Dənizdəki orta duzluluq 260-270 promildir. Bu isə dünya okeanı suyundan 7,5 dəfə artıqdır. Dənizin sahəsi 1050 kv. km, uzunluğu 76 km, maksimum dərinliyi 356 metrdir. Ölü dənizdə aparılan arxeoloji tədqiqatlar nəticəsində qədim dövrə aid Sadoma və Qomorra adlı şəhərlər tapılmışdır. Əfsanəyə görə, İbrahim peyğəmbərin Lut adlı nəvəsini Sadoma və Qomorra dağılarkən mələklər ölümdən xilas etmişlər.


Kral I Abdulla məscidi

İordaniya tarixdə güclü imperiya və dövlətlərin tərkibində olmuşdur. Araşdırmalar qədimdə bu ərazilərdə sami tayfalarının yaşadığını göstərir. Bu ərazilərin ən qədim sakinləri xananlar və sami tayfaları hesab edilir. E.ə I minillikdə İordaniya ərazisinin bir hissəsi İsrail və Yəhudi padşahlığının, sonradan isə Makedoniyalı İskəndər tərəfindən tutulmuş, Misir, Roma və başqa imperiyaların tərkibində olmuşdur. İordaniyaya İslam 635-ci ildə ərəblərin bu əraziləri ələ keçirməsi ilə gəlmişdir. 1516-cı ildən 1918-ci ilədək isə Osmanlı imperiyasının tərkibində olmuşdur. Birinci Dünya müharibəsindən sonra San-Remo konfransının (1920-ci il) qərarı ilə Böyük Britaniya mandatlığında olan Fələstin adlanan ərazinin, 1921-ci ildən sonra isə Transiordaniya adlanan əmirliyin tərkibində olmuşdur.

İordaniya 1946-cı ilin 25 mayında müstəqillik əldə etmişdir. Həmin vaxtdan 25 may – müstəqillik günü kimi qeyd olunur. 1958-ci ilin 2 noyabrında isə ingilis qoşunları ölkədən çıxarılmışdır.

İordaniyanın dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkə monarxları Məhəmməd peyğəmbərin (s) nəslindən gələn Haşimilər sülaləsini təmsil edirlər. Ölkənin ali qanunvericilik hakimiyyəti senat və deputatlar palatasından ibarət olan Milli Məclisdir. Senatın üzvləri məlik tərəfindən 4 il müddətinə təyin olunurlar.

Ölkənin paytaxtı və ən böyük şəhəri, dünyanın ən qədim şəhərlərindən hesab olunan Əmmandır. Şəhərin təxminən e.ə VII minillikdə salındığı deyilir. Əhalisi 2 milyon nəfərdir. Kralın iqamətgahı və digər hökumət binaları Əmmanda yerləşir. Şəhər iki hissəyə bölünür: qərb və şərq. Əmmanın şərq hissəsində onun tarixiliyini və memarlığını daha aydın görmək mümkün olsa da, qərb hissəsini daha modern binalar təşkil edir. Bu şəhərdə Misir, yunan, Roma, İslam mədəniyyətinə məxsus qədim dövr və orta əsrlərə aid bir sıra abidələri - amfiteatr, qəsr, qala, yaşayış yeri, məscid və saray komplekslərini görmək olar. Məsələn, II minilliyə aid olan qədim Əmman qalası, e.ə. I minilliyə aid Rujm Al-Malfouf gözətçi qüllələri, e.ə. II əsrin birinci rübünə aid böyük Helenistik saray - Qəsr əl-Əbd. Bu saray xarabalıqları İordaniyanın qərbində, Əmmandan təxminən 17 kilometr qərbdə yerləşir. Roma dövründən qalan abidələrə misal kimi Herkules məbədini, 6000 tamaşaçı tutumu olan teatrı, həmin dövrə aid fəvvarə meydanlarını göstərmək olar.

VIII əsrdən sonra inşa edilmiş abidələr isə ərəb memarlığına aiddir. Buna Əməvilər dövründən qalan böyük saray kompleksini göstərmək mümkündür. VIII əsrin ortalarında baş vermiş güclü zəlzələ nəticəsində ərəb mədəniyyətinə məxsus bir çox abidə dağılmışdır.

“Əbu Dərviş”, “Kral I Abdulla”, “Kral Hüseyn”, “Əl-Hüseyni”, “Əl-Rəhman”, “Əl-Kaluti”, “Əl-Kurdi”, “Harun” məscidləri İordaniyanın ən məşhur müsəlman ibadət ocaqlarıdır.

Ölkənin ən böyük məscidi “Kral Hüseyn” kimi tanınan, 2005-ci ildə inşa edilən “Kral Hüseyin Bin Talal” məscididir. Kral II Abdullah tərəfindən inşa olunan bu ibadət ocağında eyni vaxtda 5500 insan ibadət edə bilir.

Əmmanın möhtəşəm məscidlərindən biri də “Kral I Abdulla” məscididir. 1982-1989-cu illər arasında tikilmiş bu məbədin tutumu 3000 nəfərdir. Məscid mavi mozaik günbəzi ilə seçilir.

Hazırladı: **Tural VƏLİZADƏ**

## QISA-QISA

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə dünyada yayılmış koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması məqsədilə martın 24-dən etibarən ölkə ərazisində xüsusi karantin rejimi elan edilmişdir. Bununla əlaqədar ölkə üzrə tətbiq olunan məhdudiyyət və tövsiyələrə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində də (DQİDK) vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılmış, ancaq DQİDK-nın “qaynar xətt”inə, “www.scwra.gov.az” rəsmi saytının “Jivochat” onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılmış, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilmişdir. Bununla yanaşı, Dövlət Komitəsi pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini davam etdirmişdir. Belə ki, Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir. Bu qəbildən olan maarifləndirmə tədbirləri cari ay ərzində:

**10 sentyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər Gənclər və İdman İdarəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə “Gənclər arasında milli-dini dözümlülük, sülhsevərlik və humanizm dəyərlərinin təbliğ edilməsi” mövzusunda;

**11 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Radikallıqla mübarizə: təbliğat, təşviqat və maarifləndirmə” mövzusunda;

**18 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Tolerantlığın ünvanı Azərbaycan!” mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, şöbənin dislokasiyasına daxil olan Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən rayonlarının məscidlərində fəaliyyət göstərən icmaların sədrlərinin iştirakı ilə “Pandemiya və postpandemiya dövründə dini icmaların rolu” mövzusunda;

**22 sentyabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Şirvan şəhəri, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar rayonlarında fəaliyyət göstərən məscidlərin dini icma sədrləri, din xadimlərinin iştirakı ilə;

**25 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşəbbüsü və təşkilatçılığı, şöbənin dislokasiyasına daxil olan Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən rayonlarının din xadimlərinin iştirakı ilə “Sülh və İslam” mövzusunda baş tutmuşdur.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin qatıldığı videokonfraslarda çıxışlar zamanı koronavirus pandemiyasına (COVID-19) qarşı ölkəmizdə görülən qabaqlayıcı tədbirlər və həyata keçirilən işlərə diqqət çəkilmişdir. Dəfn mərasimləri istisna olmaqla, yas mərasimlərinin keçirilməsinin qadağan edildiyi diqqətə çatdırılmış, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın qaydalarına, Qafqaz Müsəlmanları İdarəsinin tapşırıq və tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanmışdır. Onlayn müzakirələrdə iştirak edən din xadimləri Azərbaycanda mövcud olan sabitliyin, dindarlara dövlət qayğısının dünyaya bir nümunə olduğunu, burada yaşayan bütün insanların dinindən, məzhəbindən, sosial statusundan asılı olmayaraq, bərabər olduğunu bildirmişlər.

# DQİDK KÖNÜLLÜLƏRİ DÖVLƏT KOMİTƏSİNİN ŞÖBƏLƏRİNİN İŞ PRİNSİPİ İLƏ TANIŞ OLUBLAR

Sentyabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, 14-də isə Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev Komitənin "Könüllü fəaliyyət" layihəsinin iştirakçıları ilə onlayn formatda görüş keçiriblər.

Nahid Məmmədov rəhbərlik etdiyi şöbənin fəaliyyət istiqaməti barədə ətraflı məlumat verərək bildirib ki, Dinşünaslıq ekspertizası şöbəsi dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının yayılmasına nəzarət edir. Şöbə ölkədə istehsal olunan, yaxud idxal və ixrac edilən dini təyinatlı ədəbiyyatın, audio və video materialların, mal və məmulatların, dini məzmunlu başqa məlumat materiallarının dinşünaslıq ekspertizasını həyata keçirir, eyni zamanda dini təyinatlı ədəbiyyatın, dini məzmunlu




başqa məlumat materiallarının nəzarət markası ilə markalanmasını təmin edir.

Əli Həziyev də rəhbərlik etdiyi şöbənin öhdəlikləri barədə ətraflı məlumat verərək bildirib ki, şöbə Dövlət Komitəsinin dövlət-din münasibətləri ilə məşğul olan hökumətlərarası və qeyri-dövlət beynəlxalq təşkilatların işində iştirakını təmin edir, dövlətlərarası, hökumətlərarası, idarələrarası müqavilələrin və sazişlərin layihələrinin hazırlanmasında iştirak edir.

Şöbə həmçinin, ikitərəfli və çoxtərəfli əlaqələr yolu ilə Azərbaycanın nümunəvi dövlət-din modelinin, ölkəmizlə bağlı həqiqətlərin, eləcə də erməni təcavüzünün dünya ictimaiyyətinə çatdırılması istiqamətində konfransların, sərgilərin və dəyirmi masaların keçirilməsini təmin edir, müvafiq beynəlxalq təşkilatlar və xarici dövlətlərin aidiyyəti dövlət orqanları ilə əlaqələrin yaradılmasını təşkil edir.

Görüşlərin sonunda könüllüləri maraqlandıran suallar cavablandırılıb.

# TOLERANTLIQ AZƏRBAYCAN XALQININ SPESİFİK KEYFİYYƏTİDİR



Tarix boyu Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayıblar. Azərbaycan dövləti demokratik hüquqi prinsiplərə əsaslanan birgəyaşayışa, yüksək dözümlülük mühitinin, multikultural dəyərlərin təşviqinə hər zaman xüsusi əhəmiyyət verir və bütün etnik azlıqların mədəni-mənəvi dəyərlərinin qorunub-saxlanılmasına, dil və mədəniyyətinin inkişafına böyük diqqət və qayğıyla yanaşır.

Bu gün tolerantlıq milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirmişdir ki, ölkəmizdə dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir, həmçinin eyni statusa malik olması artıq bütün dünyaya məlumdur. Y.Əliyeva tolerantlığın Azərbaycan xalqının spesifik keyfiyyəti olduğunu və bunu bütün dünyanın qəbul edib məmnunluq duyduğunun həqiqət olduğunu qeyd etmişdir. "Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən biri məhz mövcud tolerant, multikultural dəyərlərin qorunması, təbliği və təşviqi ilə bağlıdır. Ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemlərinə diqqət göstərir. Prezident İlham Əliyevin ölkənin müsəlman əhalisi ilə yanaşı, xristian və yəhudi icmalarını dini bayramlar münasibətilə təbrik etməsi bu müdrik siyasətin bariz göstəricisidir. Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqlar deyil, eyni zamanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək verilir. Çünki müxtəlif dinlərə münasibətdə tolerantlığı ilə seçilən xalqımız bu spesifik keyfiyyətinə görə nəinki Şərqdə, hətta bütün dünyada fərqlənmiş və bu gün də fərqlənməkdədir. Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. Hazırda Azərbaycanda dövlət qeydiyyatına alınan dini qurumlardan 35-i qeyri-islam (xristian – 24; yəhudi – 8;krişna – 1; bəhai – 2) təmayüllüdür, o cümlədən ölkəmizdə 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bu mütərəqqi ənənələrin, ali dəyərlərin qorunub saxlanılmasına və davam etdirilməsinə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz səlahiyyətləri çərçivəsində layiqli töhfələr verir. Bu istiqamətdə son illər bir çox yerli və beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirən Komitə dini konfessiyalar arasında əlaqələrin də dərinləşməsinə, qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsinə fəal dəstək verərək mövcud tolerantlıq mühitinin daha da təkmilləşdirilməsinə xidmət edir".

# AZƏRBAYCAN GERÇƏKLİYİ XARİCİ MƏTBUATDA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin əməkdaşları Azərbaycan gerçəkliyinin dünyaya çatdırılması ilə bağlı vaxtaşırı xarici mətbuatda çıxışlar edirlər. Sentyabr ayı ərzində ABŞ-ın "Muslim World Today" portalında şöbə müdiri Əli Həziyevin "Azərbaycanın tarixi ərazilərində və işğal edilmiş torpaqlarında dini irs məhv edilmə təhlükəsi altında" ("Religious heritage of Azerbaijan in occupied and historical territories threatened by erasure"), Argentinanın "visavis.com.ar", Paraqvayın isə "paraguayinforma.com" portalında "Yəhudilərin Azərbaycandakı həyatı" ("La vida de los judnos en Azerbaiybn"), həmçinin Ukraynanın "kyivdiplomatic.com/ua" portalında "Azərbaycan - Müsəlman Şərqinin dünyəvi mərkəzidir" ("Svitsğkiy Vuzol Musulğmansğkoqo Sxodu" — Azerbaydjan") adlı məqalələri dərc edilmişdir. Bundan başqa, Misirin nüfuzlu "www.aldiplomacy.com" xəbər portalında şöbə əməkdaşları Bəhruz Orucovun "Azərbaycanın dini yerləri turistik məkanlar kimi" ("Religious sites as tourism attractions of Azerbaijan") və Səfər Səfərlinin "Azərbaycanda qeyri-müsəlman dini azlıqlar" başlıqlı məqalələri işıq üzü görmüşdür.

Məqalələrdə ölkəmizin nümunəvi tolerant və birgəyaşayış mühiti, dinə dövlət qayğısı barədə geniş məlumat verilmiş, Azərbaycanda Xristianlıq, Yəhudilik, Zərdüştlük, Bəhailik və Hinduizmin tarixindən bəhs edilmiş, yəhudilərin burada məskunlaşma tarixi, müasir dövrdə yəhudi dini icmalarının Azərbaycandakı fəaliyyəti, o cümlədən Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı yəhudi əsilli Albert Aqarunovdan danışılmışdır. Müəlliflər, eyni zamanda ermənilər tərəfindən işğal edilən torpaqlarımızda dini abidələrimizin dağıdılaraq tanınmaz vəziyyətə salınmasına diqqət çəkmişlər. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, işğal edilmiş ərazilər və bu faktın beynəlxalq sənədlərdə əksi, Azərbaycanın irsinin dəyişdirilərək İran-fars abidələri kimi təqdim edilməsi, o cümlədən Şuşadakı Rus Provaslav kilsəsinin qriqorianlaşdırılması və s. faktlar barədə istinadlarla geniş məlumat vermişlər. Bildirilmişdir ki, Azərbaycan hər zaman sülh və birgəyaşayış prinsiplərinə söykənərək ölkədə mövcud nümunəvi dini tolerantlıq və multikulturalizm ənənələrini layiqincə qoruyub saxlamışdır və bunun dünyada təbliğində müstəsna rol oynayır.

# MÜDAFİƏ NAZİRLİYİNDƏN VALİDEYNLƏRƏ MÜRACİƏT

Ordumuzun qan və qan komponentlərinə olan tələbatı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan Bankı bölməsi tərəfindən tam təmin edilir və hərbi tibb müəssisələrində bütün qan qruplarından ehtiyatlar mövcuddur.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, hərbi qulluqçuların valideynlərini narahat edən məsələlərlə bağlı müraciətləri qəbul etmək məqsədilə Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin nəzdində sutka ərzində fasiləsiz fəaliyyət göstərən "qaynar telefon xətti" açılıb.

Vətəndaşlar (012) 406-68-58, (012) 406-68-84, (012) 406-72-52, (012) 406-72-77 nömrəli telefonlara zəng edərək onları maraqlandıran suallara bağlı müraciət edə bilərlər.

Eyni zamanda vətəndaşlardan telefon xətlərinin həddən artıq yüklənməməsi və normal qaydada fəaliyyət göstərməsi məqsədilə ehtiyac olmadığı halda zəng etməmələri xahiş olunub.



# BAŞ PROKURORLUQ: DÜŞMƏNİN TOP ATƏŞİ NƏTİCƏSİNDƏ HORADİZ ŞƏHƏRİNDƏ BİR MÜLKİ ŞƏXS HƏLAK OLUB, ÜÇÜ İSƏ XƏSARƏT ALIB



Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində sentyabrın 30-da saat 16 radələrində Füzuli rayonunun Horadiz şəhərində yerləşən yanacaq doldurma məntəqələrinin birinin yaxınlığına düşmüş top mərmisinin qəlpələrindən 1990-cı il təvəllüdlü Rüstəmov Murad Tahir oğlu həlak olub, üç nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, məntəqəyə ciddi ziyan dəyib.

Faktla bağlı Füzuli Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Eyni zamanda, düşmənin növbəti dəfə ağır artilleriya qurğularından açdığı atəş nəticəsində sentyabrın 30-da saat 15 radələrində Tərtər rayonunun Yenikənd kənd sakini Azərbaycan Respublikasının vətəndaşı Oqorodnik Lyuda Vasilyevnaya məxsus yaşayış evinin həyətinə top mərmisinin düşməsi nəticəsində həyətdə olan yardımçı tikili dağılıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

# XİN: ERMƏNİSTANIN AVROPA MƏHKƏMƏSİNDƏN SİYASİ MƏQSƏDLƏRLƏ İSTİFADƏ ETMƏK CƏHDİ ONUN ÖZÜNÜN ƏLEYHİNƏ ÇEVRİLİB

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 29 sentyabr tarixli qərarı ilə bağlı açıqlama yayıb.

Açıqlamada deyilir: "Sentyabrın 29-da İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Ermənistan hökumətinin verdiyi şikayətə cavab olaraq Məhkəmə Reqlamentinin 39-cu qaydasına müvafiq qərar qəbul edib. Həmin qərarda Avropa Məhkəməsi həm Ermənistanı, həm də Azərbaycanı mülki əhalinin Konvensiya hüquqlarının pozulmasına gətirib çıxara biləcək tədbirlərdən çəkinməyə dəvət edir.

Beləliklə, Ermənistanın hüquqi müstəvi təşkil edən Avropa Məhkəməsindən siyasi məqsədlərlə istifadə etmək cəhdi elə məhz onun özünün əleyhinə çevrilib. Əslində, bu qərarla Avropa Məhkəməsi 2015-ci ildə Çıraqov və digərləri Ermənistana qarşı işində çıxardığı qərarda gəldiyi qənaəti – Ermənistanın Azərbaycan ərazilərinin işğal olunması və bu ərazilərdə insan hüquqları pozuntularına görə məsuliyyət daşıdığını təsdiq edib. Bu, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən davam edən işğalının, habelə münaqişənin Ermənistan və Azərbaycan arasında getməsi faktının növbəti hüquqi təsbitidir.

Məlum olduğu kimi, Ermənistanın təcavüzkar hərbi birləşmələri Azərbaycanın şəhər və kəndlərini, o cümlədən mülki əhalini və çoxsaylı mülki obyektləri atəşə tutmaqdadır. Bunun nəticəsində dinc əhali arasında azı 12 nəfər həlak olub, onlarla insan xəsarət alıb, şəxsi və dövlət əmlakına bərpaolunmaz ziyan yetirilib. Nəticə etibarilə, Avropa Məhkəməsinin 29 sentyabr tarixli qərarı Ermənistana Azərbaycan ərazilərində törətdiyi, insan hüquqları və beynəlxalq humanitar hüquqa zidd zorakı əməllərinə son qoymağa dair çağırış mənasına gəlir.

Bundan əlavə, Avropa Məhkəməsi Ermənistanı öz öhdəliklərinə riayət etmək üçün görülmüş tədbirlər barədə mümkün qədər tezliklə ona məlumat verməsini istəyib.

Qeyd edək ki, sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüz aktına cavab olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanmış əks-hücum əməliyyatının gedişi zamanı



beynəlxalq humanitar hüquqa tam və qəti şəkildə riayət edilir, heç bir formada mülki əhali və obyektlər hədəfə alınmır. Azərbaycan tərəfi Avropa Məhkəməsinin qərarına uyğun olaraq beynəlxalq öhdəliklərinə riayət edilməsi istiqamətində görülmüş tədbirlər barədə quruma müvafiq qaydada məlumatlar təqdim edəcək.

# MÖVLUD ÇAVUŞOĞLU: AZƏRBAYCAN İŞĞAL ALTINDAKI TORPAQLARINI TƏKBAŞINA AZAD ETMƏYƏ QADİRDİR

Türkiyə Dağlıq Qarabağ münaqişəsinin diplomatik və sülh yolu ilə həlli istiqamətində ciddi səylər göstərdi. Bu səylər nəticə verdimi? Vermədi! Beynəlxalq ictimaiyyət bu münaqişənin həllində qətiyyət göstərdimi? Göstərmədi! Bütün bunlar olmadıqca Ermənistan işğalçılıq siyasətində daha da cəsarətləndi və hücumları davam etdirdi. Beynəlxalq ictimaiyyət münaqişənin həllini diplomatik yolla həllini istəyirsə qətiyyətli olmalıdır. Qarşıdurma dayandırılsın deyənlər Ermənistana işğal ərazilərdən çıxsın deyirmi? Demirlər! Bu, doğru yanaşma deyil.

Bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Anadolu agentliyinə müsahibəsində səsləndirib.

Artıq münaqişənin həll olunması vaxtının çatdığını ifadə edən nazir deyib: "Problem diplomatik yolla həll olmadı. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək istəyir və mübarizəni öz ərazisində aparır. Dünyanın harasında münaqişələr varsa, işğalçı ilə torpağı işğal edilən tərəf eyni tutulmur. Bu məsələdə Ukrayna və Gürcüstanın ərazi bütövlüyü haqlı olaraq dəstəklənir. Azərbaycan torpaqlarının işğalı məsələsinə də eyni mövqe sərgilənməlidir.

Azərbaycanın bu məsələdə bir istəyi olursa, istədiyini edərik. Lakin Azərbaycanın özünü müdafiə etmək və ərazilərini işğaldan qurtarmaq üçün gücü yetərlidir. Prezident İlham Əliyevin tez-tez dediyi kimi, işğalçı tərəf gəlsin üz-üzə savaşaq və nəticəni görərsən. Azərbaycan deyir ki, mən öz torpağımı işğaldan azad edirəm və başqa dövlətlər qarışmasın. Ermənistan başqa ölkələrdən dəstək olmasa, işğalçılığa cəsarət etməzdi".

Azərbaycanın geniş müdafiə imkanlarına malik olduğunu vurğulayan nazir deyib ki, Türkiyənin başqa ölkələrlə müdafiə sənayesində və hərbi sahədə əməkdaşlığı olduğu kimi, Azərbaycanla da var. Hətta Azərbaycanla əməkdaşlıq hər kəsdən daha çox olmalıdır və olur. Azərbaycan müdafiə qüdrətini artırmaq üçün gərəkli tədbirlər görüb, başqa ölkələrdən və bizdən hərbi məhsullar almaq haqqı var və alır.

Türkiyə ilə Azərbaycanın "bir millət, iki dövlət" olduğunu xatırladan nazir Mövlud Çavuşoğlu bildirib ki, iki ölkənin müdafiə və hərbi sənayedə anlaşmaları var. Bu gün Azərbaycanın öz torpaqlarını işğaldan təkbaşına azad etməyə gücü çatır. Amma Azərbaycan harada və necə dəstək istərsə, Türkiyə onu edəcək. Danışıqlarda olduğu kimi, meydanda da Azərbaycanla birlikdəyik. Türkiyə dövləti, hökuməti və xalqı bu məsələdə qərarlıdır. Biz qardaş olaraq Can Azərbaycanın yanındayıq. Türkiyə bu münaqişənin diplomatik yolla, sülh yolu ilə, BMT-nin qərarları, qardaş Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həlli üçün böyük səylər göstərdi. Ancaq Azərbaycanın burada qəbul etdiyi qərar çox önəmlidir. Çünki otuz ildir Azərbaycan münaqişənin həllini görmədiyi kimi, bu istiqamətdə beynəlxalq ictimaiyyətdən hər hansı bir qətiyyətli addım da görmədi.

"Qarşıdurmanı heç kəs istəməz. Atəşkəsin təmin edilməsi Ermənistan dərhal Azərbaycan torpaqlarından çəkilsin tələbi ilə olmalıdır", - deyə sözünü davam etdirən nazir deyib ki, Ermənistanın təcavüzkarlığı təkcə işğalçılıqla bitmir. Yaxın Şərqdən erməni əsilli əhalini gətirib Qarabağda qanunsuz məskunlaşdırır. Bu məsuliyyətsizlik Ermənistana aiddir. İşğalçı olmasına baxmayaraq, Ermənistan dəstəklənir. Diplomatik danışıqlarda bütün bunları tərəflərə anladırıq.

Mövlud Çavuşoğlu fikirlərini belə tamamlayıb: "Azərbaycan ərazisinin iyirmi faizi işğal olunmuş və bir milyondan çox əhalisinin qaçqın düşdüyü ölkədir. Ötən dövrdə bu insanların necə çətinliklə yaşadığını gördük. Bu insanlar otuz il ağır çətinliklər yaşayıblar. Hər kəs yurduna dönmək istəyir. Azərbaycan hüquq və mənəvi baxımdan bu məsələdə haqlıdır. Beynəlxalq təşkilatlar torpaqları işğal olunan digər ölkələr kimi, Azərbaycanı da qəti şəkildə dəstəkləməlidir".

# DİNDARLIQ GİZLİ QANUNAUYĞUNLUQLARI GÖRMƏK QABİLİYYƏTİ İLƏ ƏLAQƏLƏNDİRİLİB

Neyrofizioloqlar bu qənaətə gəliblər ki, şüuraltı şəkildə gizli qanunauyğunluqları görmək qabiliyyətinə sahib insanlar daha çox dindar olur və tanrının varlığına inanırlar. Onların araşdırmalarının nəticələri "Nature Communications" elmi jurnalında dərc edilib.

"Bizim məqsədimiz tanrının var olub-olmadığını aydınlaşdırmaq deyildi, biz sadəcə beynimizin niyə və necə fövqəltəbiiyə inanmağa başladığını araşdırdıq. Ehtimal edirik ki, şüuraltı şəkildə qeyri-müəyyən əlaqələri və qanunauyğunluqları "görən" insanların dinsiz bir ailədə böyüsələr belə, dindar olmaq ehtimalı daha çoxdur", - deyə tədqiqatın müəlliflərindən biri, ABŞ-ın Corctaun Universitetinin dosenti Adam Qrin söyləyib.

Son illər neyrofizioloqlar beyin qabığı və qatlarının hansı hissələrinin insanın müxtəlif sosial və asosial davranışlarından məsul olduğunu anlamağa çalışırlar. Məsələn, isveçrəli və amerikalı tədqiqatçılar beynin prefrontal qabığının yuxarı hissəsində bir növ "dürüstlük mərkəzi" aşkar ediblər. İnsan məcburi şəkildə onu "işə salsa", aldatmağa daha az meylli olacaq. Beynin digər hissələrindəki oxşar sahələrin risk, dini davranış və təbiətdə analoqu olmayan digər kompleks anlayışlarla əlaqəli olduğu müəyyən edilib.

Qrin və həmkarları Vaşinqton və Kabildə yaşayan 200 könüllünün iştirakı ilə təcrübə keçiriblər. Onlar kompüterdə sadə diqqət oyunu oynayan iştirakçıların beyin aktivliyini və davranışlarını müşahidə ediblər. Eksperimentlərin nəticələrini müqayisə etdikdə hər cəhətdən bir-birindən uzaq olan hər iki mədəniyyətin nümayəndələri üçün xarakterik olan maraqlı bir cəhət alimlərin diqqətini çəkib. Belə ki, bu cür testlərdə ən yaxşı nəticəni göstərən könüllülərin təcrübənin digər iştirakçılarına nisbətən daha dindar olduğu ortaya çıxıb. Ən maraqlısı da budur ki, bu yalnız xristian və müsəlmanlar üçün deyil, həm də dindar olmayan ailələrdə böyüyən və sonradan dindar olan insanlar üçün də tipik cəhət idi. Bunun əksinə, gizli qanunauyğunluqları görmə qabiliyyəti nisbətən inkişaf etməmiş, qatı dindar ailədə doğulan insanlar isə təcrübənin digər iştirakçılarına nisbətən müəyyən yaşa çatdıqdan sonra imanlarını itirirlər. Buradan yola çıxaraq elm adamları hesab edirlər ki, Yer üzündəki bütün xalqlar arasında tanrılar və digər fövqəltəbii varlıqlar haqqında oxşar təsəvvürlərin mövcudluğunu izah edən bir mexanizm vardır.

# ƏNƏNƏVİ EVLİLİK UŞAQLARI ƏN YAXŞI ŞƏRTLƏRLƏ TƏMİN EDİR

"Sosial Ədalət Mərkəzi"nin (Centre for Social Justice) yeni araşdırmasına görə, ənənəvi evlilik uşaqları ən yaxşı şərtlərlə təmin edir, ölkədə sürətlə böyüyən nikahsız birgə yaşama isə uğursuz uşaqların sayını artırır. Bu barədə "christiantoday" xəbər verib.

Britaniyalı analitiklərin "Ailə quruluşu hələ də vacibdir" adlı hesabatında evliliyin üstünlüklərini sübut edən konkret dəlillər təqdim olunub. Məlum olub ki, "qeyri-sabit" ailələrdə böyüyən uşaqlar yüksək gəlir və təhsilin olmasına baxmayaraq, "o qədər də sağlam deyillər". Onlar daha tez cəmiyyətdən tədric edilir, küçə dəstələrinə qoşulur və nəticədə təhsilsiz, işsiz kateqoriyasına düşürlər.

Alimlər müəyyənləşdiriblər ki, evli valideynlərin birlikdə qalma ehtimalı nikahsız yaşayanlarınkından iki qat daha çoxdur. Eyni zamanda, məlum olub ki, nikahsız ailələrdə yaşayan uşaqların yarıdan çoxu (53%) valideynlərinin yollarını ayırması səbəbindən beş yaşına qədər onların birindən məhrum qalır, ənənəvi nikahlarda isə uşaqların yalnız 15%-i beş yaşına qədər boşanmanın şahidi olur.

"Sosial Ədalət Mərkəzi"nin ailə siyasəti şöbəsinin rəhbəri Kristina Odone hökuməti və cəmiyyəti xəbərdar edib ki, uğursuz ailələrə mənsub gənclərin antisosial davranışları həm mənəvi, həm də maddi cəhətdən cəmiyyətə böyük dağıdıcı təsir göstərir.

# TÜRKİYƏDƏ SURİYALILAR ÜÇÜN KİLSƏ TİKİLİR

"Fides" agentliyinin verdiyi məlumata görə, Türkiyə hökuməti İstanbulun kənarında 1923-cü ildən bu yana, yəni Mustafa Kamal Atatürk tərəfindən Türkiyə Cümhuriyyətinin elan edilməsindən bəri ölkə ərazisində ilk dəfə sıfırdan kilsənin inşasına başlanılıb.

Kilsə yerli Suriya pravoslav icmasının xahişinə əsasən, Atatürk adına Hava Limanının yaxınlığında, Yeşilköy rayonunda Müqəddəs Efremin şərəfinə inşa olunacaq. Kilsənin açılışının 2021-ci ilin əvvəllərində baş tutacağı gözlənilir. İbadət üçün 700-dən çox dindarı qəbul edə biləcək məkanda həm də hazırda Suriyanın yerli pravoslav xristian icmasına rəhbərlik edən mitropolit Yusuf Çetinin iqamətgahı da yerləşəcək.

Qeyd edək ki, hazırda Türkiyədə, əsasən də İstanbulun ətraf bölgələrində təxminən 25 min suriyalı xristian yaşayır.

# RUSİYADA MƏSCİDLƏRİN ƏN ÇOX ÇATIŞMADIĞI ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB

Moskvada Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin plenum iclası keçirilib. İclasda İdarənin strukturundakı dini qurumların sədrləri, dini təhsil təşkilatlarının və özəl təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər. Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftiləri Şurası sədrinin birinci müavini Dəmir Muhətdinov çıxış edərək Vladivostok, Volqoqrad, Voronej, Soçi və Kalininqrad şəhərlərində məscidlərin çatışmadığına diqqət çəkib. D.Muhətdinov bildirib ki, bizim prioritet vəzifəmiz bir milyondan çox əhalisi olan şəhərlərdə və ya müsəlman infrastrukturunun çatışmadığının kəskin hiss olunduğu böyük şəhər mərkəzlərində məscidlərin tikilməsidir. Onun sözlərinə görə, hazırda federasiyanın bəzi bölgələrində İslam dini təyinatlı obyektlərin tikintisi davam edir. Pandemiyaya baxmayaraq, tikinti dayanmayıb. Buraya məscidlər, mədəniyyət və təhsil mərkəzləri, inzibati binalar daxildir. Müsəlman Ruhani İdarəsinin nümayəndəsi, həmçinin qeyd edib ki, təşkilat tarixi məscidlərin də aktiv şəkildə bərpasını həyata keçirir. Onun sözlərinə görə, müsəlmanlar tarixi ziyarətgahlarının dirçəlməsinə getdikcə daha çox maraq göstərirlər.

# PATRİARX BÖHRANDAN ÇIXIŞ YOLUNU "LİVANIN BİTƏRƏFLİYİ"NDƏ GÖRÜR

Maronit Katolik Kilsəsinin patriarxı Beçara Butros əl-Rai müharibə edən tərəflər arasında tezliklə barışığa nail olmaq və böhrandan çıxmaq üçün "Livanın bitərəfliyi"nin elan olunmasının vacibliyini bir daha bəyan edib və bu addımın "Hizbullah" hərəkatına qarşı atılmadığını vurğulayıb. Bu barədə "fides" xəbər agentliyi məlumat verib.

Əl-Rai bu fikirləri patriarxın Dimandakı yay iqamətgahında ölkədəki müxtəlif xristian və müsəlman icmalarının nümayəndələrini birləşdirən "Mənəvi birləşmə" (Spiritual Rassemblement) adlı dinlərarası təşkilatın nümayəndələri ilə görüşdə səsləndirib.

"Livanın bitərəfliyi qədim ənənələrdən doğan, mədəni və dini plüralizmə əsaslanır. "Livan Milli Paktı" da (1943-cü ildə şiə, sünni və maronit icmalarının liderləri arasında bağlanan və Livanın çoxkonfessiyalı dövlət kimi təməlini qoyan yazılmamış razılaşma) bu plüralist bitərəflik prinsiplərini təsdiqləyir. Əgər biz ənənəvi bitərəfliyimizdən dönsək, maronitlər Fransaya, sünnilər Səudiyyə Ərəbistanına, şiələr isə İrana üz tutacaqlar", - deyə patriarx bildirib. Onun sözlərinə görə, xalqın parçalanması və bir-biri ilə savaşan "din döyüşçülərinin" meydana çıxması nəticəsində yaşanılan vətəndaş müharibəsi Livanın plüralist və bitərəf təbiətini amansız sınaqlarından keçirmişdir. Bu böhran davam edərsə, Livan xalqı Orta Şərqdəki güclü geosiyasi blokların toqquşması nəticəsində parçalanacaq və məhv olacaq.

Görüş zamanı "Mənəvi birləşmə" təşkilatının nümayəndələri ölkənin hər hansı bir xarici müdaxilədən, Livanın suverenliyinə təcavüzdən və digər dövlətlərin vassalına çevrilməkdən qorunması baxımından "Livanın bitərəfliyi"nə nail olunması fikri ilə yekdilliklə razılaşdıqlarını ifadə ediblər.

# PAPA II İOHAN PAVELİN "SUPERMEN" OBRAZINDA HEYKƏLİ QURAŞDIRILIB

"The Guardian"ın verdiyi xəbərə görə, Polşanın paytaxtı Varşavada II İohan Pavelin nəhəng meteoriti tutan "Supermen" obrazında təsvir edildiyi qeyri-adi heykəli quraşdırılıb. Heykəltəraş Yeji Kalina əsərinə "Zəhərlənmiş qaynaq" adını verib. Varşava Milli Muzeyinin qarşısında, qanı simvolizə edən qırmızı su hovuzunun üstündə quraşdırılan heykəl pontifikin anadan olmasının yüz illiyi ərəfəsində ucaldılıb. Muzeyin veb-saytındakı açıqlamada deyilir: "Rəssamın dediyinə görə, II İohan Pavel meteoritin əzdiyi gücsüz bir qoca deyil, fövqəlbəşəri gücə malik nəhəngdir". Əsər 1999-cu ildə pontifikin onu əzən bir meteoritin altında yerə sərilmiş fiqurunu təsvir edən qalmaqallı heykəlinə "bədii cavab" kimi qarşılanıb. İtalyan rəssam Maurisio Kattelanın "La Nona Ora" adlı bu mum heykəli Venesiya sərgisində nümayiş etdirildikdən sonra qalmaqala səbəb olmuşdu.

# SƏUDİYYƏ ƏRƏBİSTANI BMT VƏ ÜST-Ə 100 MİLYON DOLLAR YARDIM EDİB

Səudiyyə Ərəbistanı COVID-19 pandemiyası ilə mübarizədə yoxsul ölkələrə yardım məqsədilə BMT və Ümumdünya Səhiyyə Təşkilatına 100 milyon dollar ayırdığını bəyan edib. Bu barədə Krallığın rəsmi "SPA" informasiya agentliyi məlumat yayıb.

Səudiyyə Ərəbistanının BMT-dəki daimi nümayəndəsi Abdallah Əl Muallimi təşkilatın Baş katibi Antonio Quterreş ilə virtual görüşündə bildirib ki, onun ölkəsi pandemiya ilə mübarizə sahəsində qlobal əməkdaşlığı dəstəkləyir və ayrılan vəsaitin yoxsul ölkələrdə insanların epidemiyadan qorunmasına sərf olunmasını istəyir.

Antonio Quterreş Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləzizə təşəkkürünü bildirərək qeyd edib ki, Krallıq pandemiya ilə yanaşı, dünyada sülhün və təhlükəsizliyin təmin olunması, o cümlədən Yəməndə humanitar fəlakətin aradan qaldırılması istiqamətində BMT ilə sıx əməkdaşlıq edir.

# "AZƏRBAYCAN TOLERANTLIĞINDA ALMAN İRSİNİN İZLƏRİ VƏ MEMARLIĞI"

Avropa və Asiyanın qovşağında yerləşən, əsrlərdir müxtəlif mədəniyyətlərin, dinlərin beşiyinə çevrilən Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da ölkə ərazisində məskunlaşan xalqların, milli azlıqların və müxtəlif etnik qrupların mədəni inkişafının təmin olunmasında, ölkədə mövcud olan multikultural, tolerant mühitin qorunub saxlanılmasında mühüm addımlar atmışdır. Bu rəngarənglik ölkənin ictimai-siyasi, mədəni həyatına da mühüm təsir göstərmiş, müxtəlif sahələrin inkişafında öz töhfələrini vermişdir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda mövcud olan bu etnik və dini müxtəlifliyi milli sərvətimiz kimi dəyərləndirmişdir. Hazırda ölkəmiz tolerant və multikultural mühitin qorunmasına görə dünya ölkələrinə örnək olacaq mövqedə dayanmaqdadır. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, milliyyətindən asılı olmayaraq, Azərbaycan xalqının hər zaman mehriban bir ailə, dost, qardaş kimi yaşamaq ənənələrini daha da möhkəmləndirmişdir. Ölkənin milli siyasəti Azərbaycanda yaşayan müxtəlif millətlərin, etnik qrupların və fərqli dinlərin nümayəndələrinin birgəyaşayış və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilmişdir. Ölkə qanunları mənşəyindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Əsas məskunlaşma prosesi çar Rusiyası dövründən başlayan və iki əsrdən bəri ölkəmizdə yaşayan almanlar da buranı özlərinə doğma ana qucağı bilmiş və günümüzə qədər öz mədəni irslərini qoruyub saxlamışlar. Azərbaycan xalqı ilə hər zaman qardaşlıq, dostluq şəraitində yaşayan almanlar İkinci Dünya müharibəsinin başlanması nəticəsində Azərbaycandan kənara sürgün edilmişlər. Lakin onlar özlərindən sonra ölkəmizin müxtəlif guşələrində dərin izlər qoymuşlar. Almanların Cənubi Qafqazda məskunlaşmasının 200 illiyi münasibəti ilə 30 avqust 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Sərəncam imzalamışdır.

Bununla bağlı ölkədə bir sıra tədbirlər həyata keçirilmişdir. Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə nəşr olunmuş "Azərbaycan tolerantlığında alman irsinin izləri və memarlığı" adlı kitabda da qədim zamanlardan bəri ölkəmizdə məskunlaşmış almanların həyatlarının müxtəlif mərhələləri göstərilmiş, alman mədəniyyətinin inkişaf etdirilməsi üçün yaradılan tolerant mühit, onların həyat tərzi, yerli əhali ilə dostluq münasibətləri qələmə alınmışdır.

Əvvəlcə qeyd etmək lazımdır ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab üç dildə - Azərbaycan, alman və rus dillərində yazılmışdır. Kitabda tarixi mənbələrə istinad edilərək almanların Cənubi Qafqaza köçürülmə səbəbləri, Azərbaycanda yaranmış böyük koloniyalar haqqında məlumat verilmişdir.

Kitabda, eyni zamanda öz mənfur siyasətlərini həyata keçirtmək üçün təkcə türk xalqına və müsəlmanlara deyil, eləcə də digər xalqlara və dinlərin nümayəndələrinə, o cümlədən alman xalqına qarşı da düşmən mövqe tutan ermənilərin zorakı davranışları, cinayətləri qələmə alınmışdır. Kitabda qeyd edildiyi kimi, erməniləri almanlara qarşı təcavüzə sövq edən əsas iki amil mövcud idi: birincisi, erməni-azərbaycanlı münaqişəsində almanların erməni quldurlarını dəstəkləməməsi və hətta bəzi hallarda azərbaycanlıları müdafiə etməsi; ikincisi, ermənilərin almanları öz yaşayış yerlərindən




qovmaq, onların yüksək səviyyəyə malik təsərrüfatlarını, evlərini, geniş torpaq sahələrini, sənaye obyektlərini ələ keçirmək niyyəti.

Bununla yanaşı, kitabda XX əsrin əvvəllərində sovet Rusiyasının alman əhalisinin aktiv hissəsini məhv etməyə yönəlik siyasəti nəticəsində repressiyaya məruz qalmış azərbaycanlı almanlar haqqında da materiallara yer verilmişdir. Kitabda, eyni zamanda alman təhsil sistemi, almanların öz dini etiqad azadlıqlarını qoruyub saxlamaları üçün onlara ölkəmizdə yaradılmış şərait haqqında oxucu kütləsinə geniş məlumat çatdırılmışdır. Ölkəmizdə yaşayan almanların sərbəst şəkildə ibadət etmələri üçün icmalarını formalaşdırmağa, həmçinin ibadət yerlərinin tikilisinə icazə verilməsinə şərait yaradılmışdır. Onu da qeyd etmək lazımdır ki, kitabda yerli əhali ilə almanlar arasında mövcud olan dostluq, yardımlaşma kimi münasibətlər işıqlandırılmışdır. Bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhət kimi qeyd edilmişdir. Belə ki, ibadət ocaqlarının tikilməsində Azərbaycan əhalisi - milyonçular, eyni zamanda sadə camaat yaxından iştirak edərək ianələr toplamışlar. Ölkənin bir çox bölgələrində almanlara ibadət və təhsil ocaqlarının tikilməsində kömək göstərilmişdir.

Neft sənayesinin inkişafı ilə bağlı Azərbaycana müxtəlif ölkələrdən memarlar, sənətkarlar və digər sənət sahibləri köç edirdi. Köç edənlər arasında öz yüksək memarlıq bacarıqları ilə bir çox layihələrə imza atmış almanlar da var idi. Bütün bunlar Azərbaycanda memarlığın inkişafında yeni eranın başlamasına gətirib çıxartmışdır. Həmin dövrdə tikilən memarlıq incilərinin çoxu günümüzə qədər gəlib çıxmış və tarixi abidə kimi qorunmaqdadır. Bütün bu qeyd olunanlarla yanaşı, kitabda alman memarları və onların əsərləri haqqında da məlumatlar verilmiş və fotolar paylaşılmışdır.

Hazırda ölkəmizdə yüzlərlə alman yaşayır. Ölkədə əsrlər boyu formalaşmış multikultural və tolerant mühitin qorunub saxlanması istiqamətində dövlət uğurlu və məqsədyönlü tədbirlər həyata keçirir. Belə ki, ölkədə yaşayan bütün millətlərə, azsaylı xalqlara və etnik qruplara dövlət xüsusi dəstək və qayğı göstərir. Ölkəmizdə almanlara məxsus "Dirçəliş" mədəni-tarixi ictimai birliyi, Evangelist Lüteran Cəmiyyəti fəaliyyət göstərməkdədir. Bütün bunlarla yanaşı, Prezident İlham Əliyevin Sərəncamı əsasında Bakıda, Şəmkirdə alman kilsələri bərpa olunmuşdur.

Bu gün Azərbaycan almanlarıın maddi-mənəvi mədəniyyətini və milli kimliyini qoruyub saxlayır, onların tarix və mədəniyyətlərinə dair ədəbiyyatlar nəşr olunur. Kitabın hazırlanması zamanı Azərbaycan tarixçilərinin əsərlərinə, arxiv materiallarına və müxtəlif mənbələrə istinad edilmişdir.

**Rima HACIYEVA,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı

# NOTR-DAM-DE-LA-PE KAFEDRALININ 30 İLLİYİ QEYD OLUNUB

"Fides" agentliyinin xəbərinə görə, Kot-d'İvuarın (Fil Dişi Sahili) paytaxtı Yamusukroda dünyadakı ən böyük xristian məbədlərindən olan Notr-Dam-de-la-Pe kafedralının təqdis olunmasının 30 illiyi münasibətilə tədbir keçirilib. Yubiley tədbirlərinin keçirilməsi əvvəlcə bütün 2020-ci il boyu nəzərdə tutulsa da, koronavirus pandemiyası səbəbindən 2021-ci ilə qədər təxirə salınıb. Bununla belə, kafedralın təqdis olunmasının ildönümü Şükranlıq Günü ilə üst-üstə düşən 10 sentyabr tarixində təntənəli ibadətlə qeyd olunub. Tədbirdə iştirak edən Yamusukro yeparxiyasının apostol administratoru və Aqbovil yepiskopu Aleksis Tuabli Yulo əhaliyə müraciət edərək xüsusilə də siyasətçiləri parçalanmalara və faydasız münaqişələrə son qoymağa, Fil Dişi Sahili xalqının rifahı naminə sülh yolunu tutmağa çağırıb.



Qeyd edək ki, adı Ginnesin rekordlar kitabına düşən kafedral 1985-1989-cu illərdə Romadakı Müqəddəs Pyotr Kafedralı modelində inşa edilmişdir. Təxminən 40 milyard franka başa gələn kafedralın tikintisinə vəsaitin bir hissəsi Fil Dişi Sahilinin "qurucu atası" sayılan ilk prezident Feliks Ufue Buanyi tərəfindən ayrılmışdır. Kafedral 10 sentyabr 1990-cı ildə Papa II İohan Pavel tərəfindən təqdis edilmişdir. Eyni anda 18 min ziyarətçinin yerləşdiyi və dünyanın ən böyük katolik məbədlərindən sayılan Notr-Dam-de-la-Pe kafedralını təkcə 2019-cu ildə 300 minə yaxın kilsə mənsubu, zəvvar və turist ziyarət etmişdir. Kafedralın ruhaniləri Katolik Apostol Cəmiyyəti rahiblərindən – pallotinilərdən ibarətdir. Yamusukro kafedralı həm ərazisi (30 min kvadrat metr), həm günbəzinin hündürlüyü (158 metr), həm də tutumu baxımından Vatikandakı Müqəddəs Pyotr Kafedralını üstələyir.

# BİLİRSİNİZMİ?

**1 oktyabr – Beynəlxalq Ahıllar Günüdür.** 1990-cı il dekabrın 14-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının qətnaməsinə əsasən təsis edilib. Bu günün təsis edilməsinin başlıca məqsədi ailə və icmaların, eləcə də cəmiyyətin həyatında ahıl və yaşlıların iştirakını fəallaşdırmaq, onların hüquq və ehtiyaclarını diqqətə çatdırmaqdır.

**2 oktyabr – Ümumdünya Təbəssüm Günüdür.** 1999-cu ildən hər il oktyabr ayının ilk cümə günü qeyd olunur. Günün devizi belədir: "Xeyirxah iş gör. Heç olmazsa, bir təbəssümün yaranmasına kömək et!" Bu bayrama görə dünya XX əsrin ortalarında ABŞ-da yaşamış rəssam Harvi Bolla borcludur. Belə ki, 1963-cü ildə Amerikada bir sığorta şirkəti vizit kartı kimi hər hansı yaddaqalan parlaq rəmz düşünüb tapmaq xahişi ilə rəssama müraciət edir. Harvi Boll çox düşünmədən hazırda internet istifadəçilərinin "smayl" adlandırdıqları gülümsəyən sarı sifəti sifarişçilərə təklif edir. İşi qəbul edən sifarişçilər H.Bolla 50 dollar ödəyir və gülümsəyən sifət şəklində döş nişanı hazırlayaraq şirkətin heyətinə paylayırlar. Bu cür vizit kartının qazandığı uğur bütün gözləntiləri kölgədə qoyur. Gülümsəyən sifət tezliklə futbolka, beysbolka, zərf, açıqca və kibrit qutuları üzərində görünməyə başlayır. Hətta ABŞ-ın poçt idarəsi üzərində bu simvol olan marka buraxır.

**2 oktyabr – Beynəlxalq Qeyri-Zorakılıq Günüdür.** BMT Baş Assambleyası tərəfindən 2007-ci il iyunun 15-də təsis edilib. Qəbul olunmuş qətnaməyə əsasən, bu beynəlxalq günün məqsədi sülh, dözümlülük, anlayış və zorakılıqdan imtina mədəniyyətini təşviq etməkdir. Tarix olaraq 2 oktyabrın seçilməsi isə təsadüfü deyil. Məhz bu gün Hindistanın müstəqilliyi uğrunda hərəkatın lideri və qeyri-zorakılıq fəlsəfəsinin banisi Mahatma Qandinin doğum günüdür.

**4 oktyabr – Ümumdünya Heyvanlar Günü və ya Heyvanların Beynəlxalq Müdafiəsi Günüdür.** Bu əlamətdar gün 1931-ci ildə İtaliyanın Florensiya şəhərində ekoloqların nəsli kəsilməkdə olan bəzi növlərin müzakirəsini apardıqları yığıncaqdan sonra təqvimə daxil edilmişdir. Sonradan həmin təqvim dünyadakı heyvanların bütün növlərinə şamil olunmuşdur. 4 oktyabr tarixi isə təsadüfi olaraq seçilməmişdir. Bu gün məşhur katolik din xadimi Assizli Fransiskonun ölüm günü kimi yad olunur. Orta əsr İtaliyasında yaşamış bu şəxs "Fransiskan" ordeninin əsasını qoymaqla yanaşı, həmçinin heyvanların müdafiəçisi və himayəçisi hesab olunur. Buna görə də bir çox rəssam öz əsərində müqəddəs Fransiskonu heyvan və quşların əhatəsində təsvir etmişdir.

**4 oktyabr** – 1582-ci ildə Roma Papası XIII Qriqorinin əmri ilə sonradan "qriqoryan" adı verilən yeni təqvimə keçid edilmişdir. Təqvimdə yeni islahatlar e.ə. 46-cı ildə Yuli Sezarın əmri ilə İsgəndəriyyə astronomları tərəfindən həyata keçirilmişdi. Bu təqvim "yulian" təqvimi adlanırdı. Günəş ilinə əsaslanan bu təqvimdə 365,25 sutka var idi. Lakin ildə günlərin sayı tam olmalı olduğundan belə hesab etmişdilər ki, 3 il 365 sutkaya, dördüncü il isə 366 sutkaya sahib olacaq. Bu əlavə günü isə 24 və 25 fevral arasında yerləşdirmişdilər. Yeni ilin başlanğıcı əvvəllər olduğu kimi, 1 martda deyil, 1 yanvarda idi. Bu təqvimdən yarım minillik boyu istifadə edilmişdir. XVI əsrin ikinci yarısında səhv artıq 10 günə çatmışdı (yaz gecəgündüz bərabərliyi geri çəkilmişdi). III Qriqori təqvimdəki səhvi aradan qaldırmaq məqsədilə 1582-ci ilin 5 oktyabrını 15 oktyabr elan etdi. İslahatlardan sonra yeni təqvimi Qriqoryan təqvimi, yaxud "yeni tərz", Yulian təqvimini isə "köhnə tərz" adlandırmağa başladılar.

**5 oktyabr – Beynəlxalq Müəllimlər Günüdür.** İlk dəfə 1994-cü ildə qeyd olunan bu gün başlanğıcını 5 oktyabr 1966-cı ildə Parisdə müəllimlərin statusuna dair keçirilən xüsusi hökumətlərarası konfransdan götürmüşdür. Nəticədə YUNESKO və Beynəlxalq Əmək Təşkilatı tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli birgə sənəd də qəbul olunmuşdur. Bu gün bütün səviyyələrdə keyfiyyətli təhsil prosesində müəllimlərin rolunun və xidmətlərinin, həmçinin onların cəmiyyətin inkişafındakı əvəzsiz töhfələrinin qeyd olunduğu bir gündür. Ölkəmizdə Müəllimlər Günü 1993-cü ildən qeyd edilməyə başlanılıb.

**10 oktyabr – Ümumdünya Psixi Sağlamlıq Günüdür.** 1992-ci ildə Ümumdünya Psixi Sağlamlıq Federasiyasının təşəbbüsü və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyi ilə təsis edilib. Məqsəd psixi sağlamlıq probleminə yanaşmada dünya əhalisinin məlumatlılıq səviyyəsini yüksəltməkdir.

**10 oktyabr – Ölüm Hökmünə qarşı Ümumdünya Mübarizə Günüdür.** 2003-cü ildə Ölüm Hökmünün Ləğvi üzrə Beynəlxalq Koalisiyanın təşəbbüsü ilə dünyadakı ölüm hökmlərinin sayının azaldılması məqsədi ilə təsis edilmişdir. Qlobal məqsədi edam cəzasının qanuni olduğu bütün ölkələrdə ölüm hökmlərinin və edam cəzalarının ləğvi olan Beynəlxalq Koalisiya 2002-ci ildə Romada yaradılmışdır. Bu gün onun tərkibinə 150-dən çox milli və beynəlxalq insan hüquqları təşkilatı daxildir.

**11 oktyabr – Beynəlxalq Qızlar Günüdür.** İlk dəfə 2012-ci ildə qeyd edilən bu gün BMT Baş Assambleyası tərəfindən dünya ictimaiyyətinin diqqətini qızların hüquqlarına və onların qarşılarına çıxan özünəməxsus problemlərə cəlb etmək məqsədilə təsis edilmişdir.

**15 oktyabr – Ümumdünya Əl Yuma Günüdür.** 2008-ci ildə BMT-nin uşaq fondu YUNİSEF tərəfindən təsis edilib. Bu istiqamətdə keçirilən tədbirlərin məqsədi ictimaiyyəti bu sadə, lakin çox əhəmiyyətli olan gigiyenik prosedura əməl etməyə və bununla da xəstəliklərin qarşısını almağa çağırmaqdır. Belə ki, BMT və ÜST ekspertlərinin qənaətinə görə, "çirkli əllər"dən yaranan xəstəliklər qlobal səviyyədə fəlakətə yol aça bilər. Adi görünən bu gigiyenik prosedur hər gün minlərlə uşağın həyatını xilas edir. "Çirkli əllər" Asiya və Afrika ölkələrində uşaq ölümləri sayının yüksək olmasının əsas səbəbidir. Belə ki, əl yumamaq difteriya, sətəlcəm, hepatit, qrip, göz infeksiyası və müxtəlif növ göbələk xəstəliklərinin yaranmasının əsas faktorlarından biridir. YUNİSEF-in məlumatına görə, dünyada hər gün təkcə ishaldan (bu vəziyyəti "çirkli əllər xəstəliyi" də adlandırırlar) beş minə yaxın uşaq tələf olur. Əgər onlar tualetdən və yemək yeməzdən əvvəl əllərini sabunla yumuş olsaydılar, bu sayı yarıya qədər azaltmaqla ölümün qarşısını almaq mümkün olardı.

**17 oktyabr – Beynəlxalq Yoxsulluğun Aradan Qaldırılması Günüdür.** 1992-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, bu əlamətdar gün yoxsulluğa qarşı milli, regional və beynəlmiləl səviyyələrdə mübarizə səylərini birləşdirmək məqsədi daşıyır. Onun qeyd edilməsi bütün ölkələrdə yoxsulluq və kasıblığın aradan qaldırılması uğrunda mübarizənin zəruriliyi barədə məlumatlılığın artırılması məqsədi daşıyır. Həmin gün yoxsulluq içində yaşayanların ağır vəziyyətinə xüsusi diqqət ayrılması və onların problemlərinin hamıya çatdırılması baxımından çox əhəmiyyətlidir.

**17 oktyabr** – Hinduistlər Navaratri bayramını qeyd edirlər. Ən mühüm Veda bayramlarından hesab olunan Navaratri İlahi Ananın günləri də adlanır. Bayram qəməri təqvim üzrə aşvin ayının ilk günü başlayır və doqquz gün davam edir, elə buna görə də bayrama Doqquz Payız Gecəsi adı verilmişdir. Həmin günlərdə İlahi Anaya və ya İlahəyə (Devi) ibadət edilir. İlahi Ana bütün kainatın anası, insanlar isə onun övladları sayılır.

**18 oktyabr – Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür.** Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edilmişdir. Ali Sovetin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edilmişdir. Konstitusiya Aktında göstərilmişdir ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Konstitusiya Aktı 6 fəsil, 32 maddədən ibarətdir. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılmış və əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs vermişdir. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi yaradılmışdır.

**19 oktyabr – Bəhai inancının banisi Bəhaullahın doğum günüdür.** Bəhai təqvimində doqquz müqəddəs gündən biri sayılır. Bəhaullah və ya əsl adı ilə Mirzə Hüseyn Əli Nuri noyabrın 12-də İranda dünyaya gəlmişdir. Bəhai dinində iddia olunur ki, o, bütün qədim dinlərdə vəd olunmuş bəşəriyyətin xilaskarıdır. 2015-ci ilə qədər Bəhaullahın ad günü 12 noyabr tarixində qeyd olunurdu. Lakin 2014-cü ildə "Ümumdünya Ədalət Evi" bu müqəddəs günün qeyd olunması tarixini Novruzdan sonrakı 8-ci təzə Ayın çıxması ilə 1-ci və 2-ci günlərə salmışdır. Ona görə də bayramın tarixi ildən-ilə dəyişir.

**20 oktyabr** – Bəhailər Babın doğumunun ildönümünü böyük bayram kimi qeyd edirlər. Həmin gün mömin bəhailər heç bir iş görmürlər. Ərəb dilindən tərcümədə "bab" "qapı" deməkdir. Əsl adı Seyid Əli Məhəmməd Şirazi olan Bab Babilər hərəkatının rəhbəri və Bəhai dininin iki peyğəmbərindən birincisidir. O, 20 oktyabr 1819-cu ildə İranda anadan olmuşdur. 1844-cü il mayın 23-də İranın Şiraz şəhərində özünü Allah vəhyinin müstəqil daşıyıcısı və ondan sonra gələcək daha böyük Allah Elçisinin müjdəçisi elan etmişdir.

**26 oktyabr** – Beynəlxalq Məktəb Kitabxanaları Günüdür. YUNESKO-nun təşəbbüsü ilə 1999-cu ildən etibarən hər il oktyabrın 4-cü bazar ertəsi günü qeyd olunur. İlk dəfə olaraq bu günün qeyd olunmasını Beynəlxalq Məktəb Kitabxanaları Birliyinin prezidenti Blanş Vullz elan edib. 2005-ci ildə bu bayramın rəsmi statusunu birliyin yeni prezidenti Piter Cenko təsdiqləyib. 2008-ci ildən etibarən isə bu gün bir aylıq silsilə tədbirlərlə qeyd olunur.

**28 oktyabr – Mövludun-Nəbi – Məhəmməd peyğəmbərin doğum günüdür.** Misir tarixçisi və coğrafiyaçısı Makrizi deyir ki, Həzrət Peyğəmbərin doğum gününü ilk dəfə İsmaili məzhəbindən olan Fatimilər Qahirədə təşkil etmişlər. Bu da X yüzilliyin sonu-XI yüzilliyin əvvəllərinə təsadüf edir. Onların bu mərasimləri keçirməsində əsl məqsədləri öz ideologiyalarını yaymaq idi. Ancaq Fatimilərin bu mərasimlərini sözün tam mənasında xalq mərasimi saymaq mümkün deyil. Çünki bu mərasimlərə yalnız dini və siyasi çevrə qatılırdı. Bağdad tarixçisi İbnul Cövzinin yazdığına görə, XI əsrdə Bağdad yaxınlığındakı Ukbərə qəsəbəsində xalq ilk dəfə Mövlud keçirmişdir. Daha sonra xalq tərəfindən təşkil edilmiş mərasimlərdə xəlifə və dövlət məmurları da iştirak etməyə başlamışlar. Lakin bu mərasimlər rəsmi mahiyyət daşımırdı. Mövlud mərasimlərini sistematik bir şəklə salan isə səlcuqilərin Ərbil atabəyi Əbu Səid Müzəffərəddin Goyboru olmuşdur. O, Səlahəddin Əyyubinin bacısının əri idi. 1171-ci ildə Fatimi sultanlığını məğlub etmiş və beləliklə, İslam dünyasında türk hakimiyyəti dövrü başlamışdır. Həzrət Peyğəmbərin doğum tarixinin ixtilaflı olması səbəbindən Müzəffərəddin Goyboru rəsmi mərasimi bir il rəbiüləvvəl ayının 12-si, bir il də 17-si keçirirdi. Bu bir neçə günlük fərqi aradan qaldırmaq məqsədilə 1981-ci ildə Ayətullah Xomeyninin təklifi ilə, 1989-cu ildən isə Türkiyə Diyanət Vəqfinin təşəbbüsü ilə Peyğəmbərin doğumu "Doğum həftəsi" adı altında bir həftə - rəbiüləvvəl ayının 12-dən 17-dək bayram edilmişdir. Bu fikir digər müsəlman ölkələri tərəfindən rəğbətlə qarşılanmışdır. Əsrlər boyu Mövlud gecəsinin öz ənənələri təşəkkül tapmışdır. Bu gecə müsəlmanlar oyaq qalır, Quran oxuyur, sədəqə çıxarır, günahlarının bağışlanması üçün Allaha dualar edirlər. Lakin Mövlud gecəsinin fəlsəfəsi bununla bitmir. Burada məqsəd ondan ibarətdir ki, müsəlmanlar Məhəmməd peyğəmbərin keçdiyi həyat yoluna bir daha nəzər salsınlar, onun yüksək insani keyfiyyətlərindən, əxlaqi dəyərlərindən ibrət götürə bilsinlər.

Hazırladı: **Güney Namazova**

# CƏMİYYƏT və DİN

№ 06 (347) SENTYABR 2020-ci il


## AMERİKA KİNO AKADEMİYASI YENİ STANDARTLAR QƏBUL EDİB



Amerika Kino Akademiyası "Oskar"ın "Ən yaxşı film" nominasiyasına iddialı olan ekran əsərlərinin müəllifləri üçün yeni standartlar qəbul edib.

"TASS" agentliyinin verdiyi xəbərə görə, yeni qaydalar irqi, etnik, seksual azlıqlar və qadınlara qarşı olan zorakılıqlarla mübarizəyə yönləndirilib.

Məlumatda qeyd olunub ki, qəbul edilən standartlar tamaşaçılar arasındakı fərqləri əks etdirmək üçün ekranda və ondan kənarda olan insanların ədalətli müxtəlifliyini təmin etmək üçün hazırlanıb.

Bildirilib ki, əgər hansısa bir ekran əsəri ilin "ən yaxşı filmi" adını almaq istəyirsə, akademiyanın irəli sürdüyü 4 meyardan ən azı ikisinə cavab verməlidir.

Amerika Kino Akademiyası, ilk növbədə, aktyor heyətinə diqqət yetirəcək. Baş və ya ikinci dərəcəli rolda oynayan aktyorlardan ən azı bir nəfər irqi və ya etnik azlıqda olanları təmsil etməlidir. Əgər buna nail olmaq mümkün deyilsə, o zaman film truppasının 30 faizini irqi, etnik, seksual azlıqların nümayəndələri və sağlamlıq imkanı məhdud olan qadınlar təşkil etməlidir.

Qəbul edilən qaydalarda filmin yaradıcı və texniki heyəti üçün də analoji tələblər irəli sürülüb. Buraya rejissorlar, ssenaristlər, bəstəkar, qrim və geyim ustaları, redaktorlar, prodüserlər və s. daxildir.

Qeyd edək ki, 93-cü "Oskar" mükafatlandırılması mərasimi 2021-ci ilin fevralında keçiriləcək.

## LENİNİN NƏŞİNİ SATIN ALMAQ ÜÇÜN 50 MİLYON DOLLAR TOPLANIB



ABŞ-da Vladimir Leninin nəşinin satın alınması məqsədilə 50 milyon dollardan çox vəsait toplanıb. Layihə həm amerikalıların, həm də rusiyalıların geniş dəstəyini qazanıb. Bu barədə amerikalı rəssam Devid Datuna məlumat verib.

Bir qədər əvvəl Devid Datuna Vaşinqtonda Leninin mavzoleyinin oxşarının tikilməsi təşəbbüsü ilə çıxış etmiş və inqilabçının nəşini satın almaq istəyini bildirmişdi. Sonradan Rusiya Kommunist Partiyasının lideri Gennadi Züqanov layihəyə münasibət bildirərkən vətənini, tarixini və liderini satmağın yalnız satqınların işi olduğunu deyib.

"Rusiyanın bəzi siyasətçilərinin mənfi reaksiyasına baxmayaraq, layihə həm amerikalıların, həm də rusiyalıların geniş dəstəyini qazanıb", - deyə rəssam qeyd edib. O, 50 milyon dollarlıq layihənin həmmüəllifi olmaq istəyənlərdən sutka ərzində onlarla təklif aldığını vurğulayıb.

Layihə müəlliflərinin sözlərinə görə, incəsənət obyekti ABŞ-da nəzərəçarpacaq dəyişikliklərə və Amerika cəmiyyətinin sosial-kommunist hərəkatına münasibətinə hesablanıb. Rəssamın fikrincə, yeni mavzoley hazırda prezident seçkiləri ərəfəsində daha çox tələb olunan dəyişikliklərin simvoluna çevrilə bilər.

### Yadigar söz

V. Hüqo

***Bu günümüzün necə olmasından asılı olmayaraq, bizim sabahımız sülhdür.***

## Bakı və Abşeron üzrə namaz vaxtları ( Oktyabr - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## AVROPALILARI ƏN ÇOX İQLİM DƏYİŞİKLİYİ QORXUDUR

İnkişaf etmiş ölkələrin sakinlərinin başlıca təhlükəli hesab etdikləri hadisələrin yer aldığı siyahıda ilk beşliyi - iqlim dəyişikliyi, yoluxucu xəstəliklərin yayılması, terror aktları, sərhəddən kiberhücumlar və nüvə silahlarının yayılması tutub.

Bu haqda məlumat "Pew Research Center" tədqiqat mərkəzi tərəfindən aparılmış sorğunun nəticələrinə əsasən yayılıb.

Sorğuda Avstraliya, Belçika, İngiltərə, Kanada, Danimarka, Fransa, Almaniya, İtaliya, Yaponiya, Hollandiya, İspaniya, Cənubi Koreya, İsveç və ABŞ-ın 14,276 yetkin sakini iştirak edib.

Respondentlərin 70 faizi başlıca təhlükəli hadisələrin yer aldığı ilk beşliyə iqlim dəyişikliyini daxil ediblər. Sorğuda iştirak edənlərin 69 faizi pandemiya, 66 faizi terror aktları, 65 faizi digər ölkələrin kiberhücumları, 61 faizi nüvə silahlarının yayılmasından ehtiyat edir.

Araşdırmanın müəllifləri avropalıları daha çox iqlim dəyişikliyinin narahat etdiyini qeyd edib. Sakinlərin yoluxucu xəstəliklərlə bağlı artan qorxusu isə COVID-19 pandemiyası ətrafında yaranmış vəziyyətlə əlaqədardır.

## MİSİR FİRONLARINA AİD 13 SARKOFAQ AŞKAR EDİLİB

Arxeoloqlardan ibarət beynəlxalq ekspedisiya Misirin Saqqara bölgəsində fironlara aid 13 möhürlənmiş sarkofaq aşkar ediblər. Bu barədə Misirin Turizm və Qədim Abidələr Nazirliyi məlumat yayıb.

Təxminən yerin 11 metr dərinliyində aparılan qazıntılar zamanı taxta üzərində işlənmiş rəsmlər və yazılar da tapılıb. Arxeoloqlar bildiriblər ki, 2500 il tarixi olan sarkofaqların üzərindəki orijinal rənglər silinməyib.

Misirin Turizm və Qədim Abidələr naziri Xalid Ənani və Antik Əşyalar üzrə Ali Şuranın baş katibi Mustafa Vəziri də Saqqaraya gələrək arxeoloqların iş prosesini izləyiblər. Arxeoloqlar məlumat veriblər ki, sarkofaqlar möhürlənib və yerin altındakı xüsusi zirzəmiyə yerləşdirildiyi gündən bəri açılmayıb. Onların fironlara və ailə üzvlərinin hansına məxsus olması isə yaxın vaxtlarda müəyyən ediləcək.

Bu tapıntılar əl-Əsasif gizli sığınacağında aşkar edilən mumiyalardan sonra ikinci böyük arxeoloji kəşf hesab olunur.


Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894